**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**XURAMAN TOFİQ QIZI VƏLİYEVA**

# XIX ƏSRİN AXIRLARI – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANIN YEYİNTİ SƏNAYESİNİN TARİXİ

İxtisas: 5503.02 – Vətən tarixi

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

## A V T O R E F E R A T I

**Bakı - 2013**

Dissertasiya AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın yeni tarix» şöbəsində yerinə yetirilmişdir

**Elmi rəhbər:**
**tarix üzrə elmlər doktoru, professor** **Q.Ə.Əliyev**

**Rəsmi opponentlər:**
**tarix üzrə elmlər doktoru, professor** **L.L.Həsənova**
**tarix üzrə fəlsəfə doktoru** **A.Ş.Şahmuradov**

**Aparıcı elmi müəssisə:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Azərbaycan tarixi» kafedrası**

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 22 fevral 2013-cü il tarixli 95 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış 5503.02 – «Vətən tarixi» ixtisası üzrə Dissertasiya Şurasının «_27» 04 2013-cü il tarixli iclasında, saat ____ keçiriləcəkdir.

**Ünvan**: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küç., 23.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» __________ 2013-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə elmlər doktoru, professor** **R.C.Süleymanov**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** «XIX əsrin axırları – XX əsrin əvvəllərində Şimali Azərbaycanın yeyinti sənayesinin tarixi» mövzusu tarixşünaslıqda xüsusi tədqiqat obyekti olmamışdır. Tədqiq olunan dövrdə Şimali Azərbaycanda iqtisadi tarix, xüsusilə sənaye tarixi problemləri Azərbaycan tarixşünaslığında zəif öyrənilmiş, mövzuya ötəri toxunulmuş və ona görə də bir çox mühüm məsələlər haqqında aydınlıq yaratmaq tələb olunur. Yeyinti sənayesinin də tarixi bu sıradadır. Tarixşünaslıqda sənayenin xammal bazasının öyrənilməsi sənaye tarixinin tədqiqi ilə üzvi şəkildə bağlı olduğundan hər iki sahənin kompleks şəkildə tədqiqinə böyük ehtiyac duyulur. Əgər yeyinti sənayesi məhsullarının təkcə Rusiya bazarlarına deyil, dünyanın bir çox ölkəsinə ixrac edildiyi nəzərə alınarsa, onda beynəlxalq iqtisadi əlaqələr baxımından da mövzunun seçilməsi böyük elmi əhəmiyyət kəsb edir.

Başqa vacib məsələ yeyinti sənayesində kapitalist əsaslarda təşkil edilmiş təsərrüfat formalarının inkişafı, eləcə də şirkət və səhmdar cəmiyyətlərin istehsalda rolunu müəyyənləşdirməkdir. Bəhs edilən dövrdə Şimali Azərbaycanın yeyinti sənayesində yerli şirkətlərlə yanaşı, əcnəbi ölkələrə məxsus şirkətlərin fəaliyyətinin öyrənilməsi də xüsusi maraq kəsb edən məsələlərdəndir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra kənd təsərrüfatı və sənaye istehsalı sahəsində baş verən proseslər sanki tədqiq edilən dövrdəki sənaye tarixinin bir sıra məsələsi ilə səsləşir. Keçmişdə olduğu kimi, müasir dövrdə də xarici ölkələrin şirkətləri xalq təsərrüfatının demək olar ki, bütün sahələrində iştirak edir. Bu şirkətlərin bir çoxu qeyri-neft sahələrinə, o cümlədən kənd təsərrüfatına sərmayə qoymaqla istehsalın inkişafında mühüm rol oynayırlar. Bu səbəbdən də keçmişin təcrübəsini öyrənmək tarixilik baxımından da böyük aktuallığa malikdir.

Ulu Öndər Heydər Əliyev 1997-ci ilin yanvarında Respublika Elmlər Akademiyasının həqiqi və müxbir üzvləri, eləcə də akademiya institutlarının rəhbərləri ilə görüşündə demişdir ki, Azərbaycan tarixinin ən çox təhrif olunmuş dövrləri XIX-XX əsrlərdir. Ona görə də bu dövr tarixinin dərindən öyrənilməsini tarixçilər qarşısında mühüm vəzifə kimi qoymuşdur. Əlbəttə, bu konteksdə XIX əsrin axırları – XX əsrin əvvəllərində yeyinti sənayesi tarixinin yeni tələblərə uyğun şəkildə araşdırılmasına nə dərəcədə böyük ehtiyac olduğu bir daha aydın görünür.

**Tədqiqatın xronoloji çərçivəsi.** İşin xronoloji çərçivəsi XIX əsrin axırlarından 1917-ci ilədək olan dövrü əhatə edir.

**Mövzunun öyrənilmə dərəcəsi.** Tədqiqat obyekti kimi seçilmiş «XIX əsrin axırları – XX əsrin əvvəllərində Şimali Azərbaycanın yeyinti sə-



nayesinin tarixi» mövzusu Azərbaycan tarixşünaslığında ayrıca öyrənilməmişdir, lakin Azərbaycan tarixi üzrə ümumiləşdirilmiş əsərlərdə, həmçinin ayrı-ayrı müəlliflərin əsərlərində mövzuya bu və ya digər şəkildə toxunulmuşdur.

Azərbaycanın yeyinti sənayesinin tarixi sovet hakimiyyətinə qədər olan dövrdə nəşr olunmuş əsərlərdə xüsusi olaraq araşdırılmamışdır, baxmayaraq ki, o dövr ədəbiyyatında, həmçinin Qafqaz tarixi ilə bağlı əsərlərdə verilmiş faktik materiallar öz özlüyündə böyük maraq kəsb edir.

S.İ.Qulişambarov və P.A.Orlovun XIX əsrin sonlarında çap olunmuş əsərlərində[1] mövzuya aid maraqlı statistik materiallar verilmişdir. Hər iki əsər mənbə xarakterlidir. Ş.İ.Qulişambarov Qafqaz statistika komitəsinin sədri idi və onun əsəri komitəyə daxil olan statistik materiallar əsasında yazıldığına görə dissertasiya müəllifi üçün müəyyən əhəmiyyət kəsb edir. P.A.Orlovun əsəri də demək olar ki, ilk mənbə kimi qəbul edilə bilər, çünki bu əsərdə müəssisələrin inşa tarixi, onların texniki təchizatı, istehsal edilmiş məhsulun həcmi və fəhlələrin sayı haqqında mənbələrdən alınmış məlumatlar verilmişdir.

XX əsrin əvvəllərində yeyinti sənayesinin müxtəlif məsələlərinə həsr edilmiş əsərlərin demək olar ki, hamısına xas olan ümumi cəhət bu əsərlərdə şirkət və səhmdar cəmiyyətlərin istehsaldakı roluna diqqət yetirilməməsidir.

Ölkəmizin balıqçılıq təsərrüfatı və balıq sənayesi tarixinə həsr olunmuş əsərlər sayca nisbətən çoxdur. Onlardan N.A.Borodin, N.Suvorov, V.İ.Meysner, M.O.Novoselov və N.Şavrovun əsərlərini[2] qeyd etmək olar. Statistik material cəhətdən nisbətən dolğun olmasına baxmayaraq, bu əsərlərdə qeyd olunan sahələrdəki vəziyyət heç də həqiqətə uyğun xarakterizə edilməmişdir.

Duz istehsalı haqqında A.M.Marqolisun, L.L.Perşkenin Cənubi Qafqazın sənaye sahələrinin təsviri, A.N.Manevskinin Yelizavetpol qu-

---

[1] Гулишамбаров С.И. Обзор фабрик и заводов Закавказского края. Тифлис, 1894, 360 с; Орлов П.А. Указатель фабрик и заводов окраин России: Царского Польского, Кавказа, Сибири и Среднеазиатских владений. СПб., 1895, 983 с.

[2] Бородин Н.А. Закавказские рыбные промыслы и техника приготовления на них рыбных продуктов. // Вестник рыбопромышленности, СПб., 1901, №12; Бородин Н.А. и Суворов Н. Каспийские сельди и их промысел. СПб., 1908, 231с.; Бородин Н.А. Очерк сельдяного промысла по западному побережью Каспия, СПб., 1904, 139 с.; Мейснер В.И. Сельдяной промысел на побережье Каспийского моря (работы экспедиции 1912 г.). СПб., 1914, 227 с.; Новоселов М.О. Историческая справка о рыболовстве в Каладагне и описание Ольховского участка. Баку, 1909, 91 с.; Шавров Н. Значение разливов Аракса для Кавказской рыбопромышленности и меры к их наилучшему использованию. СПб., 1909, 103 с.; Шавров Н. Рыбное дело в Астаринском районе. // Вестник рыбопромышленности, СПб., 1912, № 8-10

berniyasının fabrik-zavod sənayesi, M.İ.Sveşnikovun Forer qardaşlarının şərabçılıq təsərrüfatı, T.O. Xelimskinin biyan kökü və ondan alınan cövhər, S.N.Timofeyevin Cənubi Qafqaz, xüsusilə Şimali Azərbaycanda pambıqçılıq tarixinə həsr edilmiş əsərlərində[1] mövzu ilə bağlı maraqlı məlumatlar verilmişdir. S.Timofeyevin əsərlərində çiyid istehsalına müəyyən yer ayrılmışdır.

Kənd təsərrüfatının xammal bazasının tədqiq edilməsində Y.N.Kondratenko və İ.L.Seqalın əsərlərindən[2] istifadə olunmuşdur.

Sovet hakimiyyətinin ilk illərində, yəni 20-ci illərdə, Cənubi Qafqaz, o cümlədən Azərbaycanın sənaye tarixinin öyrənilməsi sahəsində xeyli iş görülmüşdür. Bu baxımdan V.V.Smirnovun əsəri[3] xüsusi olaraq seçilir. V.V.Smirnov o vaxtlar Azərbaycanın statistika idarəsində çalışmış və balıq sənayesinin tarixindən maraqlı bir əsər yazmışdır. Əsərdə verilmiş cədvəllər və başqa materiallar ilk mənbələrə əsaslanır. Bu əsərin əsas nöqsanlarından biri səhmdarlığa dair məlumatların natamamlığı, balıqçılıq və balıq sənayesinin illik ümumi məhsulunun dəyərinin hesablanmasında çox ciddi yanlışlığa yol verilməsidir.

Bu dövrdə sənayenin bəzi sahələri haqqında məqalələr də çap edilmişdir. Onlardan A.S. Piralovun tütün yarpağı becərilməsi və M.İsayevin biyan kökü haqqındakı məqalələrini[4] qeyd etmək olar. Bu əsərlərin müsbət cəhətləri ondadır ki, müəlliflər məqalələrdə əsasən XX əsrin əvvəllərində çap olunmuş mənbələrdən istifadə etmişlər.

XX əsrin 50-60-cı illərində öyrənilən mövzunun ayrı-ayrı məsələləri barədə bu və ya digər şəkildə bəhs edilən xeyli əsər nəşr edilmişdir. Onlardan Y.Babuşkin və M.P.Borzenkonun Xəzərin nərə balıqlarına həsr

[1] Марголиус А.М. Сольяные промыслы Закавказья, их прошлое, современное и возможное будущее. Тифлис, 1906, 121 с., Перепись Баку, 1913 г., ч. III, вып. II, Баку, 1916; Першке Л.Л. Обзор отраслей промышленности в Закавказском крае за 1906 г. Тифлис, 1907, 192 с.; Маневский А.Н. Обзор фабрично-заводской промышленности Елизаветпольской губернии. Елизаветполь, 1909, 113 с.; Свешников М.И. Винодельческое хозяйство Бр. Форер. Тифлис, 1911, 73 с.; Хелимский Т.О. Солодковом корне и экстракте его лакрице на Кавказе. М., 1911, 46 с.; Тимофеев С.Н. Статистика хлопководства в Закавказском крае за 1909-1911 гг. Тифлис, 1912, 151 с.; Тимофеев С.Н. Статистика хлопководства в Закавказском крае за 1912 гг. Тифлис, 1914, 111 с.; Тимофеев С.Н. Статистика хлопководства в Закавказском крае за 1913 гг. Тифлис, 1915, 108 с.

[2] Кондратенко Е.Н. Сборник статистических сведений по Закавказскому краю. Тифлис, 1902, 281 с.; Сегаль И.Л. Сборник сведений о Елизаветпольской губернии. Тифлис, 1902, 337 с.

[3] Смирнов В. Рыбное хозяйство в водах Азербайджана за 1880-1922 гг. Баку, 1925, 220 с.

[4] Пиралов А.С. Табаководство в ЗСФСР / Экспортные товары Закавказья и условия их добывания и производства, ч. I, Тифлис, 1925, 425 с.; Исаев М. Солодковый корень. / Экспортные товары Закавказья и условие их добывания и производства, ч. 1, Тифлис, 1925, 425 с.



edilmiş əsəri[1] Sovet dövrünü əhatə etsə də, burada tədqiq olunan mövzu ilə bağlı bəzi məsələlərə də yer verilmişdir.

Gürcü iqtisadçısı akad. P.V.Ququşvilinin əsərlərini[2] ayrıca qeyd etmək lazımdır. Bu əsərlərdə üzümçülük, şərabçılıq, tütünçülük və iqtisadiyyatın digər sahələrini əhatə edən maraqlı materiallar verilmişdir. Dissertasiyanın yazılmasında həmin əsərlərdən də istifadə edilmişdir.

Haqqında bəhs edilən illərdə Azərbaycan tarixçiləri iqtisadi həyatın bir çox problemlərini əsaslı tədqiq etmişlər. Biz korifey tarixçimiz, akademik Ə.S. Sumbatzadənin fundamental əsərlərini[3] xüsusi qeyd etmək istərdik. Şimali Azərbaycanın iqtisadi tarixini tədqiq edən hər bir müəllifin stolüstü kitabları olan bu son dərəcə dəyərli əsərlər mövzunun tədqiq edilməsində dissertanta böyük kömək etmişdir.

Professor M.Ə.İsmayılovun Azərbaycan tarixinin müxtəlif dövrlərinə həsr edilmiş çoxsaylı dəyərli əsərləri[4] bizim öyrəndiyimiz mövzu üçün böyük elmi əhəmiyyətə malikdir. İşin yazılmasında bu əsərlərdən geniş istifadə edilmişdir. T.Nağıyevin və M.Ə.Musayevin əsərlərində[5] yeyinti sənayesinin bəzi sahələrinə xeyli yer ayrılmışdır.

XX əsrin son rübündə, o cümlədən müstəqillik illərində Şimali Azərbaycanın iqtisadi tarixinə aid xeyli tədqiqat işi nəşr edilmiş və onlardan tədqiqat zamanı geniş istifadə olunmuşdur. Bu əsərlərdən prof. T.T. Vəliyevin, Ə.Ə. Umayevin, M.C. İbrahimovun, Q.Ə. Əliyevin, H.N. Həsənovun, Z. Qafarovanın, Z.N. Nuriyevanın, H.Y. Verdiyevanın, A.Ş. Şahmuradovun, T.R. Axundovanın, S.S. Xəlilovanın və digər-

[1] Бабушкин Я. и Борзенко М.П. Осетровые рыбы Каспия. М., 1951, 152 с.

[2] Гугушвили П.В. Развитие промышленности в Грузии и Закавказье XIX – XX вв. т. I, Тбилиси, 1957, 343 с.; Yenə onun. Табаководство в Грузии и Закавказье в 1801-1920 гг. (Отдельный оттиск), Тбилиси, 1959, с. 155-211; Yenə onun. Фабрично – заводская статистика в Закавказье в 1864-1920 гг., ч. I. Труды Ин-та экономики АН Груз. т. X, 1957

[3] Сумбатзаде А.С. Развитие капитализма в России и его влияние на экономику Азербайджана во второй половине XIX в. / Присоединение Азербайджана к России и его прогрессивные последствия области экономики и культуры. Баку, Элм, 1955, 293 с.; Yenə onun. Сельское хозяйство Азербайджана в XIX в. Баку, Элм, 1958, 364 с.; Yenə onun. Промышленность Азербайджана в XIX в. Баку, Элм, 1964, 501 с.; Yenə onun. Социально – экономические предпосылки победы Советской власти в Азербайджане. М., Наука, 1972, 254 с.

[4] İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı, Elm, 1960, 240 s.; Yenə onun.. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX – начало XX века. Баку, Элм, 1964, 306 с.; Yenə onun.. Промышленность Баку в начале XX в. Баку, Элм, 1976, 152 с.; Yenə onun. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку, Элм, 1982, 165 с.

[5] Nağıyev T. XX əsrin əvvəllərində Azərbaycanda tütün sənayesinin inkişafı (1990 – 1917). / Вопросы развития экономики Азерб. ССР, Бакы, Элм, 1966, с. 241-247; Musayev M.Y. XX əsrin əvvəllərində Bakı şəhərinin ticarəti. Bakı, Elm, 1975, 194 c.

lərinin əsərlərini[1] göstərmək olar.

Yeri gəlmişkən qeyd etmək istərdik ki, ixtioloq alimlərdən F. Əsgərov, U. Zaytsev, F. Qasımov və başqalarının birgə yazdıqları əsərdə və prof. Z.M. Quluyevin əmtəə balıqçılığı monoqrafiyasında[2] müasir dövrün balıqçılıq təsərrüfatının hərtərəfli işıqlandırılması ilə yanaşı, XX əsrin əvvəllərində balıqçılıq və balıq sənayesi tarixindən maraqlı statistik materiallar da gətirilmişdir.

Müxtəlif illərdə nəşr olunmuş üçcildlik Azərbaycan tarixinin 2-ci, yeddicildlik Azərbaycan tarixinin 4-cü və 5-ci cildlərində[3] mövzuya dair xeyli məlumat tapmaq mümkündür.

Yuxarıda verilmiş tarixşünaslıq icmalından da aydın görünür ki, tədqiq edilən mövzuya dair ayrıca əsər yazılmamışdır.

**Dissetasiyanın mənbə bazası.** Əsərin yazılmasında istifadə edilmiş külli miqdarda faktik materiallar müxtəlif arxivlərdən toplanılmışdır. Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, bu materialların böyük əksəriyyəti ilk dəfə olaraq elmi dövriyyəyə gətirilmişdir. Fondlarından statistik materiallar toplanılmış arxivlər arasında Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi (ARDTA) əsas yer tutur. Haqqında danışılan arxivin «Bakı quberniyasının xəzinə palatası» (f. 43), «Qafqaz dağ-mədən idarəsi» (f. 92, 802), «Şərqi Zaqafqaziya balıqçılıq idarəsi» (bu ad sənədlərdə Bakı balıqçılıq idarəsi kimi də verilir, ona görə də işin yazılma prosesində hər iki addan istifadə edilmişdir) (f. 106), «Fabrik müfəttişliyi» (f. 509) və başqa fondlarında saxlanılan materiallardan geniş istifadə olunmuşdur. Göstərilənlərdən 106 və 509-cu fondları xüsusi qeyd etmək lazımdır, çünki işin ikinci və üçüncü fəsilləri demək olar ki, bu fondlardan toplanılmış materiallar əsasında yazılmışdır.

İstifadə olunmuş faktik materialın bir qrupu Rusiya Federasiyası Dövlət Tarix Arxivindən (RFDTA) əldə edilmiş materiallardan ibarətdir. Faktik materiallar bu arxivin «Ticarət və sənaye nazirliyi» (f. 23), «Əkinçilik departamenti» (f 398), «Nazirlər Şurası» (f. 1276), «Mərkəzi statistika komitəsi» (f. 1290) və başqa fondlarda saxlanılır. Kənd təsərrüfatı sahələrinə (xammal bazalarına) aid materialların bir qismi əsasən «Əkinçilik departamenti» fondundan toplanmışdır.

İlk mənbələrin başqa bir qrupu Gürcüstan Respublikasının Dövlət Tarix arxivində (GR DTA) cəmləşmişdir. İş üçün daha maraq doğuran «Qafqaz Canişinliyinin dəftərxanası» (f. 13) və «Qafqaz dağ-mədən idarəsi» (f.264) fondlarıdır. Naxçıvan daş duz mədənlərində istehsal edilən məhsul haqqında məlumat əsasən bu fonddan əldə edilmişdir.

Yeyinti sənaye tarixinin tədqiqində rəsmi dövlət idarələrinin müxtəlif illərdə işıq üzü görmüş hesabatlarından[1], vasitəli vergi qoyulan və akzis işinin vəziyyətini əks etdirən icmallardan[2], ayrı-ayrı sənaye sahələ-

---

[1] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanda pambıqçılıq, mahlıc istehsalı və səhmdar təsisçiliyi / Социально – экономические предпосылки социалистической революции в Азербайджане. Б., Элм, 1983, с.30-70; Yenə onun. İmperializm dövründə Azərbaycan sənayesi və proletariatı. B., Elm, 1987, 256s.; Умаев А.А. Возникновение и деятельность винодельческих фирм в дореволюционном Азербайджане // Вестник архивов Азербайджанской ССР, № 3, Б., 1965, с.81-96; Yenə onun. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX- начале XX в. Б., Элм, 2002, 529 с; Ибрагимов М.Дж. Предпринимательская деятельность Г.З. Тагиева. Б., Элм, 1990, 109 с.; Əliyev Q.Y. Azərbaycan nəqliyyatı və iqtisadiyyatı (XIX əsr – XX əsrin ilk onillikləri). B., Elm, 2001, 244s.; Həsənov H.N. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan dövlət kəndlilərinin üzümçülük təsərrüfatı. / Birinci rus inqilabı ərəfəsi və dövrünün Azərbaycan tarixi məsələləri. B., Elm, 1985, s. 181-187; Гасанов Г. Из истории североазербайджанской деревни в конце XIX–начало XX вв. Б., Тахсил, 2007, 224с.; Кафарова З. Формирование рабочего класса Азербайджана во второй половине XIX в. Б., Нурлан, 2005, 176 с.; Nuriyeva Z.N. Azərbaycan sənayesində milli burjuaziya. B., Altay, 1999, 108s.; Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX–начало XX вв.), Б., Алтай, 1999, 298 с.; Yenə onun. Немцы в Северном Азербайджане. Б., Элм, 2009, 206 с.; Şahmuradov A.Ş. XIX əsrin ikinci yarısı–XX əsrin əvvəllərində rusların Azərbaycanda sahibkarlıq fəaliyyəti. Tarix elm. namizədi diss. avtoref. B., 2000, 30 s.; Ахундова Т.Р. Немецкие колонии в Азербайджане ( XIX–начало XX вв.) Автореф. к. ист. н. Б., 2004, 26 с.; Xəlilova S.S. XIX əsrin ikinci yarısı–XX əsrin əvvəllərində azərbaycanlıların sahibkarlıq fəaliyyəti. T.arix elm. namizədi diss. avtoref. B., 2005, 22 s.

[2] Əsgərov F., Zaytsev U., Qasımov F.və b. Xəzərin əsrarəngiz balıqları. Bakı, Bəşər –XXI nəşr, 2003, 162 s.; Quluyev Z.M. Azərbaycanda əmtəə balıqçılığı. Bakı, Səba, 2006, 293 s.

[3] Azərbaycan tarixi: 3 cilddə, II cild, Bakı, Elm, 1964, 998 с.; Azərbaycan tarixi: 7 cilddə, IV cild, Bakı, Elm, 2000, 456 с.; Azərbaycan tarixi: 7 cilddə, V cild, Bakı, Elm, 2001, 629 с.



[1] Отчет о ходе акцизного дела в Закаспийской области за 1895 г. СПб., 1896, 87 с.; Отчет Кавказского горного управления за 1907 г. Тифлис, 1908, 193 с.; Отчет Кавказского горного управления за 1908 г. Тифлис, 1909, 283 с.; Отчет Кавказского горного управления за 1909 г. Тифлис, 1910, 278 с.; Отчет Кавказского горного управления за 1910 г. Тифлис, 1911, 299 с.; Отчет Кавказского горного управления за 1911 г. Тифлис, 1912, 301 с.; Отчет Кавказского горного управления за 1913 г. Тифлис, 1914, 312 с.

[2] Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1903г. Тифлис, 1904, 191 с.; Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1905г. Тифлис, 1906, 165 с.; Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1908г. Тифлис, 1909, 151 с.; Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1909г. Тифлис, 1910, 203 с.; Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1910г. Тифлис, 1911, 215 с.; Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1911г. Тифлис, 1912, 217 с.; Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1913г. Тифлис, 1914, 333 с.; Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1904-1913г. Тифлис, 1914, 311 с.

rini əhatə edən statistik icmallardan,[1] xalq təsərrüfatının mühüm sahələrinin illik icmalından,[2] fabrik – zavodların adbaad siyahılarından[3], müxtəlif statistik material toplularından,[4] əhali sayımı materiallarından,[5] Qafqaz statistika Komitəsi və Əkinçilik idarəsinin xəbərlərindən,[6] üzümçülük və şərabçılıq üzrə icmallardan,[7] quberniya icmallarından,[8] müxtəlif cəmiyyətlərin əsərlərindən[9] və başqa mənbələrdən hərtərəfli istifadə olunmuşdur. O qədər də tam olmayan bu mənbələrin zəruri olduqda tənqidi və təhlili verilmişdir.

Çox halda məhdud, bəzən də qərəzli olmalarına baxmayaraq, o dövrdə nəşr olunmuş və materiallarından iş prosesində istifadə olunmuş jurnal və qəzetlərdən «Vestnik finansov», «Vestnik vinodeliya», «Vestnik rıbopromişlennosti», «Kavkazskoye selskoye xozyaystvo», «Kavkaz», «Baku», «Zakavkazye», «Kaspi» və b. qeyd etmək olar. Bu mətbu orqanlarda sənayenin ayrı-ayrı sahələrinə aid həm də maraqlı məlumatlar olduğunu qeyd etməmək olmaz.

Yuxarıda adları çəkilən mənbələrdən əldə edilmiş zəngin materiallardan istifadə edilməsi dissertasiyanın dəyərini, heç şübhəsiz ki, artırmışdır.

---

[1] Сборник статистических сведений о горнозаводской промышленности России за 1903 г. СПб, 1904, 497 с.; Сборник статистических сведений о горнозаводской промышленности России за 1906 г. СПб, 1907, 489 с.; Сборник статистических сведений о горнозаводской промышленности России за 1910 г. СПб, 1911, 503 с.; Сборник статистических сведений о горнозаводской промышленности России за 1913 г. СПб, 1914, 495 с.

[2] Годовые обзоры важнейших отраслей народного хозяйсва в 1914 г. Прг. 1916, 598 с.

[3] Список фабрик и заводов всей России. Киев, 1913, 925 с., Указатель действующих империи акционерных предприятий и торговых домов, т. II, М., 1905, 585 с.; Фабрично- заводские предприятия всей России, СПб., 1914, № 8078

[4] Закавказская рыбопромышленность. // Бакинский спутник на 1909 г. ч. 4, Баку, 1910; Закавказье. Статистико – экономический сборник. Тифлис, 1925, 402 с.; Материалы к познанию русского рыболовства. / Каспийская экспедиция. 1912-1913. Пгр., 1914, 274 с.

[5] Бакинский торгово–промышленный сборник на 1900г. Баку, 1901, 224с.

[6] Известия главного управления землеустройства и земледелия. СПб., 1909,№37; Известия Кавказского статистического Комитета, Тифлис, 1904, №1

[7] Сборник сведений по виноградарству и виноделию на Кавказе, т. IV, Тифлис, 1896, 155 с.; Сборник сведений по виноградарству и виноделию на Кавказе, т. II, Тифлис, 1895, 142 с.

[8] Обзор Бакинской губернии за 1888г. Баку,1889; Обзор Бакинской губернии за 1896 г. Баку,1897; Обзор Бакинской губернии за 1904г. Баку,1905; Обзор Бакинской губернии за 1900г. Баку,1901; Обзор Эриванской губернии за 1908 г. Эриван, 1909; Обзор Эриванской губернии за 1909 г. Эриван, 1910; Обзор Эриванской губернии за 1912 г. Эриван, 1913; Обзор Эриванской губернии за 1914 г. Эриван, 1915

[9] Труды Кавказского общества сельского хозяйства, № 3, Тифлис, 1888; Труды Кавказского общества сельского хозяйства, № 8-9, Тифлис, 1893; Труды III Всероссийского съезда рыбопромышленников и других деятелей по рыболовству в Петербурге в 1903 г. (стенографический отчет). СПб., 1911, 304с.



**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın yazılmasında başlıca məqsəd XIX əsrin axırları – XX əsrin əvvəllərində Şiamli Azərbaycan sənayesinin mühüm sahələrindən biri olan yeyinti sənayesinin inkişafını göstərməkdən, ölkənin iqtisadi həyatında onun xüsusi çəkisini müəyyənləşdirməkdən və s. ibarətdir. Müəllif qarşısında duran məqsədə çatmaq üçün aşağıdakı vəzifələri həyata keçirməyi nəzərdə tutur:

- problemin nə dərəcədə mühüm və aktual olduğunu göstərmək;
- tarixşünaslıqda mövzunun hansı səviyyədə öyrənildiyini aydınlaşdırmaq;
- mövzu ilə üzvi şəkildə bağlı olan ilk mənbələrdən, ilk növbədə müxtəlif arxivlərdən toplanılmış zəngin materiallara sistemli şəkildə istinad edərək sənayenin ümumi vəziyyətini müəyyən etmək;
- yeyinti sənaye sahələrinin xammal bazası ilə sıx bağlı olmalarını, onların bir–birindən bir növ asılı olmasını əsaslandırmaq;
- xammal bazasını təşkil edən sahələrə kapitalist münasibətlərinin nüfuz etməsini izləmək;
- əmtəə balıqçılığı, üzümçülük, tütünçülük və digər sahələrdə baş vermiş dəyişikliklərin mahiyyətinə aydınlıq gətirmək;
- balıq sənayesinin inkişaf mərhələlərini müəyyənləşdirmək, istehsalın inkişaf dinamikasının təhlilini vermək;
- spirtli içkilərin həcminin ildən – ilə genişlənməsinin səbəblərini şərh etmək;
- yeyinti sənayesinin vacib sahələrindən olan tütün və duz istehsalının iqtisadi həyatda yerini təyin etmək;
- sənaye sahiblərinin milli tərkibini müəyyən etmək və onların yeyinti sənayesi sahələrində tutduqları yeri aşkarlamaq;
- yeyinti sənayesi sahələrinə həm yerli, həm də xarici kapital axınını şərtləndirən amilləri aydınlaşdırmaq;
- iqtisadi inkişafla bilavasitə vəhdətdə olan fəhlələrin təşəkkül prosesinin gedişini izləmək;
- bütövlükdə yeyinti sənayesinin Şimali Azərbaycanın iqtisadiyyatında xüsusi çəkisinin ilk mənbələr əsasında şərhini vermək;
- həm ümumi illik məhsul istehsalının dəyərinə, həm də fəhlələrin sayına görə yeyinti sənayesinin neft sənayesindən sonra ikinci yerdə olmasını əsaslandırmaq.

**Dissertasiya işinin metodoloji əsasını** tarixi ədəbiyyat və ilk mənbələrdən alınmış faktlara tənqidi yanaşma prinsipi, eləcə də tarixi – müqayisəli metod təşkil edir. İşin yazılmasında tarixilik, hadisələrə obyektiv yanaşma həlledici meyar olaraq müəyyənləşmişdir. Eləcə də, dünya və Azərbaycan tarixşünaslığında nailiyyətlərin əldə edilməsi üsulları əsas götürülmüşdür.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya Azərbaycan tarixşünaslığında bu mövzunun öyrənilməsinə həsr edilmiş ilk tədqiqat əsəridir. İşin elmi yeniliyi bir sıra problemlərin həlli ilə şərtlənir. Onlara aşağıdakıları aid etmək olar:

- Azərbaycan tarixşünaslığında ilk tədqiqat obyekti olan «XIX əsrin axırları – XX əsrin əvvəllərində yeyinti sənayesinin tarixi» mövzusunda dissertasiya sənayenin inkişaf dinamikası haqqında tam təsəvvür yaradır.
- XX əsrin əvvəllərində kənd təsərrüfatında, xüsusilə əkinçilikdə, o cümlədən texniki bitkilərin becərilməsində xarici ölkələrin müxtəlif şirkətlərindən alınmış təkmil əkinçilik alətlərinin (dəmir kotanlar, dəmir malalar və traktorlardan) və muzdlu əməyin tətbiqinin araşdırılması;
- yeyinti sənaye sahələrində xırda istehsaldan fabrik – zavod mərhələsinə keçidin və sənaye çevrilişinin baş verməsinin tədqiqi;
- yeyinti sənayesi müəssisələrinin istehsal etdikləri məhsulların yerli və Rusiya bazarlarında, həmçinin dünya bazarında realizə edilməsinin öyrənilməsi;
- ilk mənbələrdən əldə edilmiş statistik materiallar əsasında fəhlələrin say dinamikasının, yaş, cins, peşə və milli tərkibinin əyani şəkildə göstərilməsi;
- yeyinti sənayesinin Şimali Azərbaycanın iqtisadiyyatında xüsusi çəkisinin müəyyən edilməsi;
- Şimali Azərbaycanda yeyinti sənayesinin bütün sahələrinin kapitalist istehsal üsuluna keçmələrinin sübüt edilməsi.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat üçün seçilmiş mövzu müstəqil olaraq ilk dəfə kompleks şəkildə araşdırılmış, sənayenin inkişaf mərhələlərinin gedişi aydınlaşdırılmışdır.

Dissertasiyada geniş təhlili verilmiş zəngin materiallardan, eləcə də əsər boyu geniş planda şərh edilmiş məsələlərdən ümumiləşdirilmiş əsərlərin, orta və ali məktəblər üçün dərsliklərin, həmçinin dərs vəsaitlərinin yazılmasında, seminarlar və mühazirələrin hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası.** Əsərin məzmunu respublikamızda nəşr edilən mətbu orqanlarda, xaricdə çap edilən jurnallarda, eyni zamanda elmi konfrans materiallarında dərc edilmişdir. Dissertasiya AMEA-nın A.A.Bakıxanov adına Tarix institutunun «Azərbaycanın yeni tarixi» şöbəsində iki dəfə müzakirə edilmiş və müdafiəyə buraxılması tövsiyə olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə edilmiş mənbələr və ədəbiyyat siyahısından ibarətdir.



## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Tədqiqat işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tarixşünaslıq icmalı və mənbə bazası, məqsəd və vəzifələri, metodoloji əsasları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti göstərilmişdir.

**"Yeyinti sənayesi sahələrinin xammal bazası"** adlı birinci fəslin **"Balıqçılıq təsərrüfatı"** adlı yarımfəslində Rusiya tərəfindən işğal olunmuş Şimali Azərbaycanda balıqçılığın vəziyyəti öyrənilir. Gəlirli sahə olan balıqçılıq işğaldan sonra xəzinənin ixtiyarına keçmiş, 1829-cu ildə Kür çayı boyu yerləşən vətəgələr "Səlyan qəyyumluğu" adlı strukturda birləşdirilmişdi. Şimali Azərbaycanın çay və gölləri və Xəzər dənizinin ona aid hissəsi 11 balıqçılıq rayonuna bölünmüşdü.

1880-ci ildə "Şərqi Zaqafqaziyanın xəzinə balıq vətəgələri üçün müvəqqəti qaydalar"ı qəbul edən çar hökuməti öz fiskal maraqlarını önə çəkərək Şimali Azərbaycanın çay və göllərini əhatə edən balıq vətəgələrini icarəyə verməyə başladı. Xəzər dənizinin Azərbaycan sahillərindəki vətəgələr də 3 il müddətinə icarəyə verilirdi. İcarə sistemi xəzinənin gəlirlərini xeyli artırmışdı. Məsələn, xəzinə1880-ci ildə çay və göl balıqçılığından 299 min manat, 1893-cü ildə isə 1022 min manat əldə etmişdi. XX əsrin əvvəllərində ümumilikdə balıq ovunun icarəyə verilməsi xəzinəyə 18 milyon manat gəlir gətirmişdi[1].

Çay və gölləri əhatə edən vətəgələr hərraclar vasitəsilə icarəyə verilirdi. 1906-cı ilədək hərraclarda qeyri-azərbaycanlılar daha fəal idisə, bu ildən sonrakı hərraclarda azərbaycanlılar irəli çıxdılar. Hərraclarda azərbaycanlılardan H.Z. Tağıyev xüsusi fəallıq göstərirdi.

Xəzərdə balıq ovu belet əsasında həyata keçirilirdi. 1890-cı ildə 715, 1900-cü ildə 3287, 1913-cü ildə isə 5303 bilet satılmışdı[2].

Balıqçılığın inkişafı özünü balıq ovunun genişlənməsində göstərirdi. Şimali Azərbaycanda ovlanmış balıqların növ tərkibi müxtəlif idi. Burada daha çox nərə balıqları, axçalı balıqlar, çapaq, siyənək və s. balıq növləri ovlanırdı. Siyənək balığı ovu Xəzər dənizində həyata keçirilirdi. 1901-ci ildə Şimali Azərbaycanda təxminən 859 351 ədəd nərə balığı, 22 458 ədəd qızıl balıq, 400 372 ədəd ziyad və şahmayı balıqları, 198 773 ədəd çapaq və çömçə balıqları (yalnız dənizdə), 5 512 440 ədəd digər növ balıqlar ovlanmışdısa, 1913-cü ildə bu rəqəmlər balıq növləri üzrə uyğun olaraq 490 692 ədədə, 11 090 ədədə, 570 464 ədədə,

[1] Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в., с. 322.

[2] Смирнов В. Рыбное хозяйство в водах Азербайджана за 1880-1922 гг., с.4; Труды научного института рыбного хозяйства, т. IV, М., 1929, с. 307; Рыбный промысел западного побережье Каспийского моря, вып.1. Морские ловцы. Баку, 1914, с. 8.

9 279 960 ədədə və 7 013 702 ədədə bərabər olmuşdu[1].

Xəzər dənizində milyonlarla pud siyənək balığı da ovlanırdı. 1901-ci ildə 834 750 pud siyənək balığı ovlanmışdısa, 1905-ci ildə bu rəqəm 1 863 802 puda, 1910-cu ildə 2 662 500 puda, 1913-cü ildə 8 694 750 puda, 1916-cı ildə isə 5 319 750 puda bərabər olmuşdu.[2]

Şimali Azərbaycanda balıqçılıq təsərrüfatlarına balıq ovu və ovlanmış balığı sahildəki vətəgələrə daşıyan 6 min gəmi, qayıq və barkaslardan ibarət balıqçılıq donanması xidmət edirdi. 1913-cü ildə bu donanma ümumi su tutumu 1681 min puda bərabər olan 4098 gəmidən ibarət idi.[3]

"Quryev, Sklyanın və Karpov qardaşları" və "Juravlyov və K°" şirkətləri balıqçılıq təsərrüfatlarını ov ləvazimatları ilə təchiz edirdilər.

Şimali Azərbaycanda ovlanmış balığın əhəmiyyətli hissəsi Rusiya imperiyasının Xarkov, Çerniqov, Poltava, Tula, Ryazan və digər quberniyalarına göndərilirdi.

**"Üzümçülük"** adlı ikinci yarımfəsl öyrənilən dövrdə Şimali Azərbaycanda üzümçülüyün inkişafının tədqiqinə həsr olunmuşdur. Üzümçülüklə Bakı və Yelizavetpol quberniyalarında, Naxçıvan qəzasında, Zaqatala dairəsində məşğul olurdular. XIX əsrin son rübündə üzüm sahələri çox sürətlə artırdı. Məsələn, 1887-ci ildə Bakı quberniyasındakı üzüm bağlarının sahəsi cəmi 1700 desyatinə bərabər idisə, 1895-ci ilədək bu göstərici 7 dəfədən çox artaraq 12 316 desyatinə çatmışdı.[4] Eyni dövrdə Yelizavetpol quberniyasındakı üzüm bağlarının sahəsi 1600 desyatindən 20,5 min desyatinədək artmışdı.[5] Bundan başqa, 1895-ci ildə Naxçıvan qəzasında 818 desyatin, Zaqatala dairəsində isə 718 desyatin sahəyə malik üzüm bağları vardı[6]. Deməli, 1895-ci ildə Şimali Azərbaycandakı üzüm bağlarının ümumi sahəsi 33 min desyatindən çox idi.

Üzümçülük XX əsrin əvvəllərində də Şimali Azərbaycanda mühüm sahə olaraq qalırdı. 1901-ci ildə üzüm bağlarının sahəsi Yelizavetpol quberniyasında 11 695 desyatin, Bakı quberniyasında 10 394 desyatin idisə, 1913-cü ildə bu quberniyalar üzrə uyğun olaraq 15 247 və 11 211

[1] ARDTA, F. 106, siy. 1, iş 2270, vər. 4; iş 2306, vər. 28-29, 34; Рыбный промысел западного побережье Каспийского моря, вып.1. Морские ловцы, стр.9; Известия главного управления землеустройства и земледелия. СПб., 1909, №37, с. 815.

[2] Бородин Н.А. Очерк сельдяного промысла по западному побережью Каспия, с.155; ARDTA, F. 106, siy. 1, iş 2124, vər. 83, 101, 109, 112, 171; iş 408, vər.4; iş 2247, vər. 118; iş 2264, vər. 1-7, 13; 107. s. 151.

[3] ARDTA, F. 106, siy. 1, iş 2302, vər. 33.

[4] Сбыт кавказских вин. Тифлис, 1895, 4-5.

[5] Сборник сведений по виноградарству и виноделию на Кавказе, т. IV, стр. 14-15.

[6] Виноградное дело в Закавказском крае. // Вестник финансов, СПб., 1896, №14, с. 1-8.



desyatinə bərabər olmuşdu.[1] Naxçıvan qəzasında 1901-ci ildə 813 desyatin, 1913-cü ildə isə 1464 desyatin üzümlük vardı.[2]

Üzümlüklərin genişlənməsi üzüm istehsalına da müsbət təsir göstərirdi. 1897-1900-cü illərdə Bakı quberniyasında 11 287 474 pud,[3] Yelizavetpol quberniyasında 5 867 954 pud, Naxçıvan qəzasında 685 210 pud, Zaqatala dairəsində isə 427 685 pud üzüm istehsal olunmuşdu.[4] Deməli, qeyd olunan illər ərzində Şimali Azərbaycanda ümumilikdə 18 milyon puddan çox məhsul əldə edilmişdi.

XX əsrin əvvəllərində isə, 1901-ci ildə Yelizavetpol quberniyasında 851 400 pud, Bakı quberniyasında 2 186 000 pud, Naxçıvan qəzasında isə 190 625 pud məhsul yetişdirilmişdisə, 1913-cü ildə bu göstəricilər uyğun olaraq 3 733 900, 1 668 321 və 120 000 puda qədər artmışdı. Ümumilikdə 1901-1914-cü illərdə Şimali Azərbaycanda 55 milyon puddan çox üzüm istehsal olunmuşdu.[5]

Yetişdirilmiş məhsulun əsas hissəsi kapitalist qaydaları ilə inkişaf edən təsərrüfatların payına düşürdü. Bunlara misal olaraq Yelizavetpol quberniyasında Forer qardaşlarına, Hummel qardaşlarına, knyaz K. Qorçakova, Soqomonov qardaşlarına, knyaz L. Qolitsına, Xublarov qardaşlarına, Bakı quberniyasında Ağrıyev qardaşlarına, "M. Aslanov

[1] Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1903г., с. 135-136; Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1913г, с. 279-280; Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s. 165; Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX- начале XX в., с. 75-80.

[2] Известия Кавказского статистического Комитета, Тифлис, 1904, №1, с. 208; ARDTA, F. 61, siy. 1, iş 154, vər. 18; F. 509, siy. 1, iş 35, vər.5; F. 48, siy.1, iş 6, vər. 12; GRDTA, F. 243,. siy. 1, iş 611, vər. 18.

[3] Гасанов Г. Из истории североазербайджанской деревни в конце XIX – начало XX вв., 53; Сборник статистических данных о землевладении и способах хозяйствах в пяти губерниях Закавказского края. Тифлис, 1899, с. 61; Обзор Эриванской губернии за 1909 г., с. 13.

[4] Сборник статистических данных о землевладении и способах хозяйствах в пяти губерниях Закавказского края, с. 84; Кавказский календарь на 1899г. отд.III, Тифлис, 1900, с. 84-85; Кавказский календарь на 1900г. отд.II, Тифлис, 1901, с. 70.

[5] Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1903г., с. 135-136; Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1905 г., с. 153-158; Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1913г, с. 279-280; Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s. 165; Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX- начале XX в., с. 75-80; Гугушвили П.В. Развитие промышленности в Грузии и Закавказье XIX – XX вв. т. I, с. 45, 79.

və K°", "N. Şustov oğulları ilə" şirkətlərinə, Sesiyev qardaşlarına məxsus təsərrüfatları göstərmək olar.

Cənubi Qafqazda istehsal olunmuş üzümün əhəmiyyətli hissəsi Şimali Azərbaycanın payına düşürdü. 1913-cü ildə regionda yetişdirilmiş üzümün 48 %-dən çoxu Şimali Azərbaycandakı təsərrüfatların hesabında idi.

**"Tütün yarpağı becərilməsi. Biyan kökü və çiyidin əldə edilməsi"** adlı üçüncü yarımfəslin əsas məzmununu sənaye əhəmiyyətli kənd təsərrüfatı məhsulları olan tütün və biyan kökü yetişdirilməsi, çiyid istehsalı ilə bağlı məsələlər təşkil edir.

XIX əsrin sonu – XX əsrin əvvəllərində tütünçülük Şimali Azərbaycanda kənd təsərrüfatının mühüm sahəsinə çevrilmişdi. Tütünçülüyün gəlirli sahə olması ona marağı daha da artırırdı. Bir desyatin sahədə tütün becərilməsinə 50-75 manat xərc çəkilirdisə, bundan əldə olunan gəlir 180-200 manat təşkil edirdi.[1]

Tütünçülüyün ərazi baxımından geniş yayılmasına baxmayaraq, Bakı quberniyasında Quba qəzası, Yelizavetpol quberniyasında isə Yelizavetpol və Nuxa qəzaları, həmçinin Zaqatala dairəsi bu sahədə əsas rol oynayırdı. XIX əsrin 70-ci illərinin sonlarında Şimali Azərbaycanda 236 desyatin sahədə tütün yarpağı becərilirdi. Bunun 123 desyatini Bakı quberniyasının, 41 desyatini Yelizavetpol quberniyasının, 69 desyatini Zaqatala dairəsinin, 3 desyatini isə Naxçıvan qəzasının payına düşürdü.[2] Qeyd olunan əsrin 80-ci illərində Şimali Azərbaycanda təxminən 330 desyatin, 90-cı illərdə isə 270 desyatin sahədə tütün becərilirdi.[3]

Göstərilən onilliklər ərzində Şimali Azərbaycanda hər il 25-35 min pud arasında tütün yarpağı əldə olunurdu.[4]

XX əsrin əvvəllərində Şimali Azərbaycanda tütünçülüyün coğrafiyası daha da genişlənmiş, Naxçıvan qəzası da mühüm tütünçülük mərkəzinə çevrilmişdi. 1901-ci ildə burada cəmi 4,5 desyatin sahədə tütün yarpağı becərilirdisə, 1914-cü ildə bu 10,5 desyatinə çatmışdı. Ümumilikdə Şimali Azərbaycanda 1900-cü ildə tütün yarpağı becərilən 238 desyatin sahədən 24,5 min pud, 1909-cu ildə 346 desyatin sahədən 35 min pud, 1915-ci ildə isə 587 desyatin sahədən 45,8 min pud məhsul yığılmışdı.[5]

Yetişdirilən tütün yarpağının nəzərəçarpacaq hissəsini yüksək keyfiyyətli Samsun, Trabzon növləri təşkil edirdi. Şimali Azərbaycanda

[1] Azərbaycan tarixi: 3 cilddə, II cild, s. 187.
[2] Гулишамбаров С.И. Обзор фабрик и заводов Закавказского края., с. 127.
[3] Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX- начале XX в., с. 33.
[4] Yenə orada.
[5] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, стр. 187-188.



əldə olunan tütünün bir hissəsi şəxsi istifadəyə sərf olunur, bir hissəsi Bakı, Nuxa və Gəncədəki tütün və maxorka fabriklərində emal olunur, az bir hissəsi isə Tiflisə və Rusiyanın müxtəlif quberniyalarına göndərilirdi.

Şimali Azərbaycanda Kür və Araz çayları boyu, Kür-Araz düənliyində, həmçinin Bakı quberniyasının Göyçay, Şamaxı, Cavad və Quba qəzalarında həm xüsusi plantasiyalarda becərilmiş, həm də təbii şəkildə yetişmiş biyan kökü çıxarılaraq qurudulur və onun emalı nəticəsində yeyinti sənayesində və tibbdə istifadə olunan qiymətli cövhər alınırdu. XIX əsrin 80-ci illərinin sonlarında 1 milyon puddan çox yaş biyan kökü çıxarılmışdısa, 90-cı illərin əvvəllərində bu 2 milyon pudu ötmüşdü.

Biyan kökü istehsalı XX əsrin əvvəllərində də diqqət mərkəzində qalırdı. 1903-cü ildə Şimali Azərbaycanda 2,7 mln. puddan çox yaş biyan kökü çıxarılmışdı ki, bundan da 900 min puddan çox qurudulmuş məhsul əldə olunmuşdu. 1909-cu ildə bu göstəricilər uyğun olaraq 4,4 və 1,4 mln. puda, 1916-cı ildə 3,7 və 1,2 mln. puda bərabər olmuşdu. Ümumilikdə 1903 - 1916-cı illərdə Şimali Azərbaycanda 45 099 700 pud yaş, 15 050 909 pud quru biyan kökünün əldə olunduğu bildirilir,[1] lakin bu rəqəmlər həqiqəti tam əks etdirmir. Vergidən yayınmağa çalışan sahibkarlar rəqəmlərin azaldılmasında maraqlı idilər.

Biyan kökü çıxarılması ilə əsasən kəndlilər məşğul olurdu. Məsələn, XIX əsrin sonlarında Yelizavetpol quberniyasındakı kəndlilərin 29 %-ə qədəri bu sahədə çalışırdı.[2]

Əldə olunmmuş biyan kökünün bir hissəsi yerli zavodlarda emal olunurdusa, digər hissəsi xarici ölkələrə göndərilirdi. 1892-ci ildə Yelizavetpol və Bakı quberniyalarından təkcə Poti və Batum limanları vasitəsilə 1,1 mln. pud biyan kökü ixrac olunmuşdu.[3] Birinci dünya müharibəsi illərində yalnız ABŞ və İngiltərəyə hər il 280 min puddan çox quru biyan kökü ixrac olunurdu.[4]

XX əsrin əvvəllərində Şimali Azərbaycanda çiyid yağı istehsalına başlanılmışdı. Burada pambıqçılığın inkişafı nəticəsində yüz minlərlə pud çiyid alınırdı, bu da çiyid yağı istehsalı üçün əsas xammal idi. 1906-cı ildə Ləki yağ zavodunun fəaliyyətə başlaması çiyid istehsalının inkişafına müsbət təsir göstərmişdi. 1911 - 1912-ci illərdə təkcə Yelizavetpol

[1] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s. 195.
[2] Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX- начале XX в., с. 282.
[3] Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в., с. 226.
[4] Yenə onun. Социально – экономические предпосылки победы Советской власти в Азербайджане, с. 49.

quberniyasında pambıq emalı prosesində 1,8 milyon pud çiyid alınmışdı.[1] 1913-cü ildə bu quberniyada istehsal olunmmuş 1,6 milyon pud çiyidə Bakı quberniyasıda alınmış 1,2 milyon pud və Naxçıvan qəzasında alınmış təxminən 300 min pud çiyidi də əlavə etsək,[2] onda il ərzində Şimali Azərbaycanda ən azı 3,1 milyon pud çiyid istehsal olunduğunu söyləmək olar.

İstehsal olunan çiyidin 25-30 %-i Ləki zavodunda emal olunurdusa, yerdə qalanı Rusiya, Almaniya, Fransa, Böyük Britaniya və s. ölkələrə ixrac olunurdu.[3]

Birinci fəslin **"Taxılçılıq və çəltikçilik"** adlı sonuncu yarımfəsli tədqiq olunan dövrdə Şimali Azərbaycanda taxıl və çəltik istehsalı ilə bağlı məsələlərə həsr edilmişdir. Burada taxılçılığın qədim tarixə malik olmasına baxmayaraq, ticarət taxılçılığı XIX əsrin son rübündə təşəkkül tapmışdı. 1885-ci ildə Bakı quberniyasında 12 780 min pud, Yelizavetpol quberniyasında 22 275 min pud taxıl istehsal olunmuşdusa, 1899-cu ildə bu göstəricilər quberniyalar üzrə uyğun olaraq 25 578 min və 25 884 min puda bərabər olmuşdu.[4] Bu quberniyalardan başqa, Zaqatala dairəsi və Naxçıvan qəzasında da taxılçılıqla məşğul olunurdu.[5] XIX əsrin sonlarında Şimali Azərbaycanda ümumilikdə 64 milyon pud taxıl istehsal olunmuşdu.

XX əsrin əvvəllərində pambıqçılığın inkişafı taxıl əkini sahələrinin və taxıl istehsalının azalması ilə nəticələnmişdi. 1903-cü ildə 50 mln. pud, 1913-cü ildə isə 54 mln. pud taxıl yetişdirilmişdi.[6]

Çəltik Şimali Azərbaycanın əksər bölgələrində yetişdirilsə də, Lənkəran qəzası bu sahədə aparıcı idi. Bakı quberniyasında 1886-cı ildə 1450 min pud, 1899-cu ildə isə 2209 min pud çəltik yetişdirilmişdi. Yelizavetpol quberniyasında isə istehsalın həcmi 1885-ci ildə 801,3 min puda, 1899-cu ildə 2943 min puda bərabər olmuşdu.[7] Zaqatala dairəsi və Naxçıvan qəzasında da ildə təxminən 300-350 min pud çəltik əldə olunurdu.[8] Beləliklə, XIX əsrin sonunda Şimali Azərbaycanda ən azı 5,5 mln. pud çəltik istehsal edilirdi.

---

[1] Тимофеев С.Н. Статистика хлопководства в Закавказском крае за 1909-1911 гг., с.92-93.

[2] Yenə onun. Статистика хлопководства в Закавказском крае за 1913 гг., с. 35.

[3] Yenə onun. Статистика хлопководства в Закавказском крае за 1913 гг.

[4] Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в., с. 169.

[5] Yenə orada, s. 173.

[6] Исмаилов М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализма, с. 85.

[7] Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в., с. 169.

[8] Yenə orada, s. 173.



XX əsrin ilk illərində Şimali Azərbaycanda çəltik istehsalı yüksək səviyyədə idi. 1903-cü ildə Bakı və Yelizavetpol quberniyalarında 6 mln. puddan çox çəltik yetişdirilmişdi. Sonrakı illərdə pambıqçılığın genişlənməsi, taxılçılıqda olduğu kimi, çəltikçiliyə də mənfi təsir göstərmiş və 1914-cü ildə bu iki qumerniyada məhsul istehsalı təxminən 5,5 mln. pud olmuşdu.[1]

Zaqatala və Naxçıvan qəzaları da nəzərə alınsa, 1903-cü ildə Şimali Azərbaycanda 9 mln. pudadək çəltik əldə edildiyini demək mümkündür.

Şimali Azərbaycanda istehsal olunan taxıl və çəltik buradakı dəyirmanlarda emal olunurdu. Bundan başqa, XX əsrin əvvəllərində Bakıya hər il Rusiyadan orta hesabla 8-9 mln. pud taxıl gətirilirdi.[2]

**"Balıq emalı sənayesi"** adlı ikinci fəsil üç yarımfəsindən ibarətdir. Birinci yarımfəsil **"Çaylar və göllərdən ovlanmış balığın emalı"** adlanır və burada tədqiq olunan dövrdə Şimali Azərbaycanın çay və göllərində ovlanmış balığın emalı prosesi diqqət mərkəzində saxlanılmışdır. Qeyd olunur ki, balıq emalı nəticəsində əsasən kürü, kleina, vyaziqa, qaxac və s. məhsullar alınırdı. Balıq emalı sənayesinə aid o dövrün statistik materiallarının ziddiyyətli xarakter daşıması bu sahədə mövcud olmuş real mənzərənin tam dolğunluğu ilə işıqlandırılmasına çətinlik törədir.

Şimali Azərbaycanın çay və göllərində ovlanmış həm qırmızı balıqlar (ağbalıq, qayabalığı, nərə və uzunburun balığı), həm də axçalı balıqlar (əsasən naqqa balığı) emalı prosesinə cəlb olunurdu. 1881-ci ildə çay və göllərdə 453 721 ədəd, 1888-ci ildə isə 652 061 ədəd qırmızı balıq ovlanmışdı. Onların emalı nəticəsində birinci il ərzində təxminən 10 406 pud qara kürü, 453 721 ədəd kleina, 453 592 ədəd vyaziqa, ikinci il ərzində 19 988 pud qara kürü, 651 247 ədəd kleina və 651 231 ədəd vyaziqa alınmışdı. Bundan başqa, 1881-ci ildə 64 043 ədəd, 1988-ci ildə isə 165 814 ədəd naqqa balığı ovlanmışdı ki, onlardan da illər üzrə uyğun olaraq 64 043 və 165 790 ədəd kleina alınmışdı.[3]

Ümumilikdə 1880 – 1888-ci illərdə çay və göllərdə ovlanmış bütün növ balıqların emalı nəticəsində təxminən 128 259 pud qara kürü, 5 518 290 ədəd kleina, 4 400 836 ədəd vyaziqa alınmışdı. Bura Xəzər dənizinin Azərbaycan sahillərində ovlanmış balıqlardan alınmış 15 014 pud kürü, 352 622 ədəd kleina və 278 821 ədəd vyaziqa da əlavə olunsa, onda qeyd olunan illər ərzində Şimali Azərbaycanda 143 273 pud kürü,

---

[1] İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı, s. 32-35

[2] Исмаилов М.А. Промышленность Баку в начале XX в., с.79

[3] Гулишамбаров С.И. Обзор фабрик и заводов Закавказского края, 165, 168; Обзор Бакинской губернии за 1888г., с. 23.

5 870 912 ədəd kleina və 4 679 657 ədəd vyaziqa alındığı məlum olar.[1]

XIX əsrin 90-cı illərində bir sıra balıqçılıq sahələrində ovun aparılmaması balıq emalına mənfi təsir göstərmişdi. 1894-cü ildə 29 balıqçılıq sahəsindən yalnız 19-da balıq ovlanırdı. Həmin il ərzində 569 955 ədəd qırmızı balıq, 127 min ədəddən çox naqqa balığı ovlanmışdı və onların emalı prosesində 24 924 pud qara kürü, 697 354 ədəd kleina, 569 955 ədəd vyaziqa alınmışdı.[2]

İstehsal olunmuş balıq məhsullarının 90 %-dən çoxu Bankə, Bojepromısel, Gəncəli və Aşağı Akuşa sahələrinin payına düşürdü.

XX əsrin əvvəllərində balıq emalı sənayesi qeyri-sabit inkişaf edirdi. 1901-ci ildə çay və göllərdə 597 070 ədəd, 1904-cü ildə 376 680 ədəd, 1910-cu ildə 154 600 ədəd, 1914-cü ildə 234 781 ədəd qırmızı balıq ovlanmışdı ki, onların da emalı nəticəsində illər üzrə uyğun olaraq 35 103 pud, 17 103 pud, 7502 pud və 12 747 pud qara kürü alınmışdı.[3] Bu dövrdə kürü ilə yanaşı balıq konservləri, balıq yağı, duzlanmış və hisə qoyulmuş balıq, yapışqan da istehsal olunurdu. Məsələn, 1903-cü ildə 450 min pud duzlanmış qaxac hazırlanmışdı.[4]

İstehsalın qeyri-sabit inkişafı bir tərəfdən mövcud iqtisadi konyuktura ilə, digər tərəfdən isə inhisarçı şirkətlərin fəaliyyəti ilə bağlı idi. Çay və göllərdə ovlanmış balığın emalı və satışının əsas hissəsi "Kür balıq sənayesi", "Kür-Araz", "İ.Y. Pitoyev və K°", "Zaqafqaziya balıq sənayesi" şirkətlərinin əlində cəmlənmişdi.

İkinci fəslin **"Dəniz vətəgələrinin meydana gəlməsi və onların inkişafı"** adlı ikinci yarımfəsli 1880-ci ildə "Şərqi Zaqafqaziya dövlət balıq vətəgələri üçün müvəqqəti qaydalar"ın tətbiqindən sonra Şimali Azərbaycanda dəniz balıqçılığının öyrənilməsi genişlənmişdi. Bu qaydalara əsasən Samur çayından Astara çayınadək uzunluğu 640 verst, eni dənizin içərilərinə doğru 50 verst olan ərazidə balıq ovuna icazə verilirdi.[5] Samur çayından Bəndovan burnunadək olan ərazi 8-ci, Bəndovan burnundan Astara çayınadək olan ərazi isə 7, 9 və 10-cu balıqçılıq rayonlarına daxil idi.[6] XIX əsrin 80-ci illərindən başlayaraq Xəzər dənizi sahillərində vətəgələr salınmağa başlanıldı. Dənizdə balıq ovu biletlər vasitəsilə həyata keçirilirdi. Rəqabətin güclü olduğu ərazilərdə isə biletlər

[1] Гулишамбаров С.И. Обзор фабрик и заводов Закавказского края, стр. 163-175; Обзор Бакинской губернии за 1888г., с. 23.
[2] ARDTA, F. 106, siy. 1, iş 5, vər. 8-10.
[3] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s. 147.
[4] Yenə orada, s. 126.
[5] Сумбатзаде А.С. Развитие капитализма в России и его влияние на экономику Азербайджана во второй половине XIX в., с. 157
[6] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s.122.



püşkatma yolu ilə vətəgə sahibləri arasında bölüşdürülürdü. XX əsrin əvvəllərinədək balıq ovu daha çox 7, 9 və 10-cu rayonlarda aparılırdı. Balıqçılığın gəlirli sahə olması bu sahəyə maraq göstərənlərin sayının ildən-ilə artmasına gətirib çıxarmışdı. Məsələn, 1885-ci ilin əvvəllərində Qızılağac körfəzində 25 nəfər vətəgə sahibi vardısa,[1] həmin ilin oktyabrında onların sayı 43 nəfərə çatmışdı.[2] 1895-ci ilin fevralında Zyüdovst qultuqda 245 balıqçı 433 bilet,[3] avqustda isə 228 balıqçı 483 bilet almışdı.[4] Kür çayının mənsəbində 1895-ci ilin fevralında 290 balıqçı 560 bilet almışdısa,[5] apreldə 207 nəfər 976 bilet əldə etmişdi.[6] Heydər Almazov, Rüstəm Məşədi Manaf oğlu, Abi Həsən oğlu, Q. Şevçenko, A.Çumakov və başqaları hərəyə 2-3 bilet əldə etməyə nail olmuşdular. Bilet alan balıqçıların çoxu ruslar idi.

1900-cü ildə Bakı-Petrovsk dəmiryolunun istifadəyə verilməsindən sonra Şimali Azərbaycandan Rusiya bazarlarına daha çox balıq, xüsusilə siyənək balığı göndərilirdi. Siyənək balığı əsasən 8-ci balıqçılıq rayonunda ovlandığı üçün, XX əsrin əvvəllərində bu rayondakı vətəgələrin sayı durmadan artırdı. 1901-ci ildə burada 56 vətəgə vardısa, 1903-cü ildə onların sayı 107,[7] 1904-cü ildə 135, 1906-cı ildə 184,[8] 1908-ci ildə 183,[9] 1910-cu ildə 95,[10] 1912-ci ildə 97 olmuşdu.[11] 1906-cı ildən sonrakı dövrdə vətəgələrin sayının azalması iri şirkətlərin inhisarçılıq fəaliyyəti ilə bağlı idi. Bu özünü vətəgələrin sayının azalması fonunda balıq ovunun artmasında da göstərirdi. 1901-ci ildə Şimali Azərbaycanda 834 750 pud siyənək balığı ovlanmışdısa, 1908-ci ildə bu 1 391 450 puda, 1915-ci ildə isə 6 480 min puda bərabər olmuşdu.[12]

XX əsrin əvvəllərində 7, 9 və 10-cu balıqçılıq rayonlarında da vətəgələrin fəaliyyəti davam edirdi. Məsələn, 1909-cu ildə 7-ci rayonda 13, 9-cu rayonda 33, 10-cu rayonda 21 fəaliyyət göstərirdi.[13] Bu il ərzində 9-cu rayonda 479 700 manatlıq, 10-cu rayonda isə 740 500 manatlıq balıq

[1] ARDTA, F. 44, siy. 2, iş 29, vər. 155-156.
[2] ARDTA, F. 106, siy. 1, iş 675, vər. 84.
[3] ARDTA, F. 106, siy. 1, iş 825, vər. 11-17.
[4] Yenə orada, vər. 68-76.
[5] Yenə orada, vər. 25-37.
[6] Yenə orada, vər. 44-63.
[7] Yenə orada, iş 1021, vər. 72-85.
[8] Yenə orada, vər. 110-115.
[9] Yenə orada, vər. 144-153.
[10] Yenə orada, iş 1179, vər. 62-64.
[11] Yenə orada, vər. 30-32.
[12] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s. 151.
[13] ARDTA, F. 106, siy. 1, iş 1180, vər. 1-4.

və balıq məhsulları istehsal edilmişdi.[1]

İnhisarlaşma prosesi iri şirkətlərin mövqelərini möhkəmlətmişdi. "Şərqi Zaqafqaziya suları VIII rayonun dəniz balıqçılarının cəmiyyəti", "Kaspi – Tağıyev" səhmdar cəmiyyəti, "G.S.Lianozovun Cənubi Xəzər balıq vətəgələri" səhmdar cəmiyyəti, "Qafqaz balıq sənayesi və ticarəti cəmiyyəti", "Y.İ.Lbov və oğulları" səhmdar cəmiyyəti, "Rıbak" səhmdar cəmiyyəti Şimali Azərbaycanda dəniz balıqçılığına tam nəzarət edirdi.

XX əsrin əvvəllərində vətəgə sahibləri arasında rusların xüsusi çəkisi azalır, azərbaycanlıların xüsusi çəkisi isə artırdı. 1908-ci ildə dəniz balıqçılığı ilə məşğul olanların təxminən 50 %-i ruslar idisə, 1914-cü ilədək bu 30-35 %-ə düşmüşdü.[2]

Cavad qəzasında "Sila" şirkətinə, Bakıda Ş. Ramazanova, A.İ. Nusenbauma, Y.M. Promışlyanskinin "Süni buz" şirkətinə və s. sahibkarlara məxsus süni buz zavodları da balıq emalı sənayesinə xidmət edirdi.

Şimali Azərbaycanda istehsal olunmuş balıq və balıq məhsulları Rusiya və Avropa bazarlarına çıxarılırdı. Bu barədə ikinci fəslin **"Balıq və balıq məhsullarının Rusiya, eləcə də Avropa ölkələrinə ixracı"** adlı üçüncü yarımfəslində məlumat verilir.

Balıq ovu və emalı prosesini özündə əks etdirən statistik materialların azlığı bu məhsulların bazarda dövriyyəsini tam işıqlandırmaq sahəsində də çətinliklər yaradır. Məlumdur ki, Şimali Azərbaycandan ixrac olunan balıq və balıq məhsullarının çox hissəsi Rusiya bazarlarına çıxarılırdı. Hələ 1864-cü ildə Bakıdan Rusiyaya aparılmış 264 min pud müxtəlif növ məhsulun 26 669 pudunu və ya 10 %-ni balıq məhsulları təşkil etmişdi.[3]

XIX əsrin sonlarından başlayaraq Rusiyaya ixrac olunan balıq məhsullarının tərkibində siyənək balığının xüsusi çəkisi durmadan artırdı. 1904-cü ildə yalnız Bakı limanı vasitəsilə 126 924 pud balıq məhsulu Rusiyaya göndərilmişdi.[4] Ümumiyyətlə, XX əsrin əvvəllərində bazara çıxarılan balıq məhsullarının 47 %-i dəmiryolu, 36 %-i su yolu ilə Rusiyaya aparılır, 17 %-i isə Cənubi Qafqaz bazarlarında satılırdı.[5]

Balıq ovu və emalı ilə məşğul olan sahibkarlarla yanaşı, ayrı-ayrı şirkət və ticarət evləri də Şimali Azərbaycandan Rusiyaya balıq ixrac

[1] ARDTA, F. 106, siy. 1, iş 137, vər. 15-42.
[2] Şahmuradov A.Ş. XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində rusların Azərbaycanda sahibkarlıq fəaliyyəti..., s.25.
[3] Musayev M.Y. XIX əsrdə Bakı şəhərinin ticarəti. 1800-1883. Bakı, Elm,1966, s. 119.
[4] Документы по истории Баку, 1810-1917 (Сборник), Баку, Азернешр, 1978, с. 235.
[5] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s. 154.



edirdilər. Sonunculara misal olaraq "İ.İ. Tamavşev və İ.Y. Kamoyev" ticarət evini göstərmək olar. H.Z. Tağıyevin 1904-cü ildə təsis etdiyi "Kür-Xəzər" paroxod cəmiyyəti də balıq və balıq məhsullarının Rusiya bazarlarına daşınmasında iştirak edirdi.

Şimali Azərbaycandan Rusiyaya ixrac olunan balıq və balıq məhsullarının bir hissəsi sonradan Avropa ölkələrinə göndərilirdi. Sonuncuların sırasında Almaniya və Avstriya-Macarıctan imperiyalarının, Fransa və Balkan ölkələrinin adlarına rast gəlinir. Avropaya göndərilən məhsullar arasında qara kürü xüsusi yer tuturdu. Həştərxanda şöbəsi, Şimali Azərbaycanda agentliyi olan "Dikman və Qanzen" səhmdar cəmiyyəti Şimali Azərbaycanda istehsal olunan kürünün beşdə dörd hissəsini satın alaraq Almaniyaya, oradan digər ölkələrə göndərirdi. Bundan başqa, XX əsrin əvvəllərində Şimali Azərbaycanda ildə istehsal olunan 8-9 min pud balıq yapışqanı da Avropa bazarlarına çıxarılırdı.[1]

Dissertasiyanın **"Şərab və çiyid yağı istehsalı. Biyan kökü emalı"** adlı üçüncü fəsli beş yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Şərab, spirt və konyak istehsalı"** adlanır və burada XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda şərab məhsulları istehsalı ilə bağlı məsələlər tədqiq olunur.

Şimali Azərbaycanda üzümçülüyün genişlənməsi şərabçılığın inkişafını şərtləndirən əsas faktor idi. 1871-ci ildə Bakı quberniyasında 15 500 vedrə, Yelizavetpol quberniyasında 214 min vedrə şərab istehsal olunmuşdusa, 1890-cı ildə istehsalın həcmi quberniyalar üzrə uyğun olaraq 276 000 və 538 915 vedrəyə, 1899-cu ildə isə 319 655 və 756 051 vedrəyə çatmışdı.[2] İstehsal olunmuş şərab məhsullarının əsas hissəsi Bakı quberniyasında Şamaxı və Göyçay, Yelizavetpol quberniyasında isə Yelizavetpol və Şuşa qəzalarının payına düşürdü. Bundan başqa, Naxçıvan qəzası və Zaqatala dairəsində də müəyyən qədər şərab istehsal olunurdu. Bunu da nəzərə alaraq, XIX əsrin sonlarında Şimali Azərbaycanda ən azı 1,2 mln. vedrə şərab istehsal olunduğunu söyləmək olar.

Şərab istehsalı XX əsrin əvvəllərində də inkişaf etməkdə davam edirdi. Yelizavetpol quberniyasında 1900-cü ildə 521 400 vedrə məhsul ortaya çıxarılmışdısa, 1913-cü ildə bu rəqəm artaraq 2 738 875 vedrəyə çatmışdı, yəni artım 5 dəfədən çox olmuşdu. Eyni dövrdə Bakı quberniyasında istehsalın həcmi 698 min vedrədən 811 125 vedrəyə qədər artmışdı. Bundan başqa, qeyd olunan illər üzrə uyğun olaraq Naxçıvan qəzasında 108 000 və 351 079 vedrə, Zaqatala dairəsində isə 17 100 və

[1] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s. 154.
[2] Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в., с. 330.

122 750 vedrə məhsul əldə edilmişdi. Deməli, 1901-ci ildə Şimali Azərbaycanda 1 344 500 vedrə, 1913-cü ildə isə 4 056 829 vedrə şərab istehsal olunmuşdu.[1]

Yelizavetpol qəzasındakı Yelenendorf alman koloniyasının sakinləri Forer qardaşları və Hummel qardaşları təkcə Şimali Azərbaycanda deyil, ümumilikdə Cənubi Qafqazda ən iri şərab istehsalçıları idilər.

Şərab ilə yanaşı Şimali Azərbaycanda spirt və spirtli içkilər də istehsal olunurdu. XIX əsrin 90-cı illərində təkcə Kürdəmirdə 9 spirt istehsal edən müəssisə mövcud olmuşdu.[2] Bundan başqa bu əsrin son onillikləri ərzində Bakıda Popovun və Terentyevin, Şamaxıda Yepifanovun, Lənkəranda Emetsin, Ağdamda Soqomonov qardaşlarının, Xublarov qardaşlarının spirt zavodları fəaliyyət göstərirdi. Bu zavodlarda istehsal olunan spirtin miqdarı ildə 3 mln. dərəcədən çox idi.

XX əsrin əvvəllərində Şimali Azərbaycanda spirt istehsalı bir neçə dəfə artmışdı. 1901-ci ildə Yelizavetpol quberniyasında 3 769 min dərəcə, Bakı quberniyasında 4 895 min dərəcə təmizlənmiş spirt alınmışdısa, 1914-cü ildə birinci quberniyada bu göstərici 7 185 min dərəcəyə, ikinci quberniyada isə 7 263 min dərəcəyə bərabər olmuşdu. Deməli, 1901-ci ildə Şimali Azərbaycanda 8 664 min dərəcə, 1914-cü ildə isə bundan 2,7 dəfə çox, 14 488 min dərəcə təmizlənmiş spirt alınmışdı.[3] Yelizavetpol quberniyasında iri spirt zavodları Forer qardaşlarına, Xublarov qardaşlarına və Soqomonov qardaşlarına, Bakı quberniyasında N. Terentyevə, Sesiyev qardaşlarına və Ağrıyev qardaşlarına məxsus idi.

Tədqiq olunan dövrdə Şimali Azərbaycanda tut və üzüm arağı istehsal edən yüzlərlə müəssisə vardı. Onların əksəriyyəti xırda müəssisələr idi. 1901-ci ildə Yelizavetpol quberniyasındakı 170 müəssisədə 2,7 mln. dərəcə, Bakı quberniyasındakı 387 müəssisədə 2,9 mln. dərəcə araq çəkilmişdi. Bundan başqa, Naxçıvan qəzası və Zaqatala dairəsində 580 500 dərəcə üzüm arağı əldə edilmişdi. Sonrakı illərdə araq istehsalı daha da inkişaf etmiş və 1913-cü ildə Şimali Azərbaycan üzrə 29 mln. dərəcəyə çatmışdı.

Şimali Azərbaycanda istehsal olunan spirtli məhsullardan biri də konyak idi. Öyrənilən dövrdə Yelizavetpol quberniyasında Hummel qardaşlarına, Soqomonov qardaşlarına, Xublarov qardaşlarına, Forer qardaşlarına, Bakı quberniyasında S.Saracova, Ağrıyev qardaşlarına məxsus konyak zavodları fəaliyyət göstərirdi. Konyak istehsalına gəl-

[1] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s. 167.
[2] Гулишамбаров С.И. Обзор фабрик и заводов Закавказского края, с. 169-170.
[3] Rəqəmlər T.T. Vəliyevin şəxsi arxivində saxlanılan mənbə və ədəbiyyatlardan götürülmüşdür.



dikdə isə, 1902-ci ildə Yelizavetpol quberniyasında 631 252 dərəcə, Bakı quberniyasında 86 252 dərəcə, 1914-cü ildə isə birinci quberniyasında 1 343 min dərəcə, ikinci quberniyasında isə 455 min dərəcə konyak əldə olunmuşdu.[1] Konyak istehsalında İrəvan quberniyası mühüm rol oynayırdı. Cənubi Qafqazda istehsal olunan konyakın yarıdan çoxu bu quberniyanın payına düşürdü.

1868-ci ildə Yelenendorfda Forer qardaşlarına məxsus pivə zavodunun tikilməsi ilə Şimali Azərbaycanda pivə istehsalının əsası qoyuldu. Sonrakı illərdə bir neçə belə zavod da tikilmişdi. 1903-cü ildə Cənubi Qafqazdakı 18 pivə zavodunun 4-ü Şimali Azərbaycanda idi.[2]

Tədqiq olunan dövrdə Şimali Azərbaycanda çıxarılmış biyan kökünün emalı və çiyid yağı istehsalı ilə bağlı məsələlər **"Biyan kökü və çiyid yağı emalı zavodlarının fəaliyyəti"** adlı ikinci yarımfəsildə öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, yeyinti sənayesinin müxtəlif sahələrində istifadə olunan biyan kökü cövhəri (lakritsa) istehsalına Şimali Azərbaycanda xüsusi önəm verilirdi. Moskvada yaşayan Qədir ağa və Hacı Əbdürrəhman qardaşları 1860-cı ildə burada biyan kökü emalına başlasalar da, onlar bu işi inkişaf etdirə bilməmişdilər.

Bakı-Tiflis dəmir yolunun istifadəyə verilməsi lakritsanın xarici ölkələrə ixracını asanlaşdırmışdı. Nəticədə, XIX əsrin 80-ci illərində Şimali Azərbaycanda biyan kökü emal edən 3 zavod meydana gəldi. Onlardan biri yunan tacirləri Gizi və Xrussaki tərəfindən Ləki stansiyası yaxınlığında, digəri Bliss adlı şəxs tərəfindən Gəncədə, üçüncüsü isə ingilislər tərəfindən Ucarda inşa edilmişdi.[3]

XX əsrin əvvəllərində biyan kökü emalı müəssisələrinin mərkəzləşdirilməsi prosesi gedirdi. 1902-ci ildə əvvəlcə Blissin hər iki zavodu "A. Urkardt və K°" şirkətinin əlinə keçmiş, sonradan Şimali Azərbaycanda biyan kökü emal edən bütün zavodlar "Mak-Andryus və Forbes" şirkətində birləşdirilmişdi. 1906-cı ildə isə bu şirkətin əsasında "Biyan kökü

[1] Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1903г., с. 166-167; Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1905 г., с. 130; Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1909 г., с. 181; Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1910 г., с. 197; Обзор отраслей промышленности, служащих предметом косвенного обложения и положение акцизного дела в Закавказском крае за 1913 г., с. 219.
[2] Исмаилов М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализма, с.61
[3] Кавказ, 1891, №90; Гулишамбаров С.И. Обзор фабрик и заводов Закавказского края. Тифлис, с. 347;

əldə edilməsi və onun emalı üçün Qafqaz səhmdar cəmiyyəti" yaradıldı.[1] Rusiya imperiyasında biyan kökü emal edən 7 zavoddan 4-ü Şimali Azərbaycanda yerləşirdi.

Tədqiq olunan dövrdə Şimali Azərbaycanda çıxarılmış və ixrac olunmuş biyan kökünün miqdarı haqqında daha dolğun məlumatlar olsa da, emal prosesində əldə olunmuş lakritsanın miqdarı haqqında təsadüfi materiallar mövcuddur. 1907-ci ildə Gəncə zavodunda 180 min pud biyan kökü preslənmiş və 13 min pud lakritsa alınmışdı. Ləki zavodunda 1908-ci ildə 167 min pud biyan kökü preslənmişdi. Şimali Azərbaycanda ciyid yağının sənaye üsulu ilə istehsalına XX əsrin əvvəllərində başlanılmışdı. Bu işlə 1902-ci ildə meydana gəlmiş "Qafqaz yağ zavodu" şirkətinin Ləki stansiyası yaxınlığındakı zavodu məşğul olurdu. 1906-cı ildə bu şirkətin əsasında "Qafqaz yağ zavodu" səhmdar cəmiyyəti təsis edildi. Cəmiyyətin səhmləri 1915-ci ildə yeni yaradılmış "Pambıq və yağ" səhmdar cəmiyyətinin əlinə keçmişdi.

Ləki yağ zavodunda Şimali Azərbaycanın pambıqtəmizləmə zavodlarından alınan çiyidin 30-40 %-i emal olunur, yerdə qalan hissə isə Rusiyaya aparılırdı. 1913-cü ildə bu zavodda emal olunmuş 404 min pud çiyiddən 50 min puddan çox yağ, 172 min puddan çox jmıx alınmışdı. 1915-ci ildə burada 600 min pud çiyidin emalı nəticəsində 900 min manatlıq 60 min pud yağ, 240 manatlıq 240 min pud jmıx alınmışdı.[2]

Üçüncü fəslin **"Yeyinti sənayesinin başqa sahələri"** adlı yarımfəsildə ilkin olaraq dənüyütmə sənayesinin vəziyyəti tədqiq olunmuşdur. XIX əsrin 70 - 90-ci illərində Şimali Azərbaycanda yüzlərlə buxar və su dəyirmanları mövcud idi. Bakı quberniyasında Şamaxı və Göyçay qəzalarının hər birində yüzdən çox dəyirman fəaliyyət göstərirdi. Bakı, Cavad, Quba qəzalarında da dənüyütmə ilə məşğul olunurdu. İki yüzdən çox dəyirman Naxçıvan qəzasında inşa edilmişdi. Yelizavetpol quberniyasında bir neçə dəyirman mövcud idi.

Dəyirmanların çoxu xırda müəssisələr idi. Məsələn, 1890-cı ildə Naxçıvan şəhərindəki 10 müəssisədə 3500 manatlıq, 1900-cü ildə 11 müəssisədə isə cəmi 2200 manatlıq un üyüdülmüşdü.[3] Nisbətən iri dəyirmanlar Yelizavetpol qəzasında və Bakı şəhərində yerləşirdi. 1873–1895-ci illərdə Yelizavetpol qəzasında fəaliyyət göstərmiş yeganə dəyir-

[1] Исаев М. Солодковый корень. / Экспортные товары Закавказья и условие их добывания и производства, ч. 1, 1925, с. 390.
[2] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s. 197.
[3] Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку, с. 296.



manda orta hesabla 82 min manatlıq məhsul istehsal edilmişdi.[1] Bakı şəhərində 1883-cü ildə fəaliyyət göstərmiş 13 müəssisədə 318 486 manatlıq un üyüdülmüşdü, 1900-cü ildə isə müəssisələrin sayı 10-a, istehsalın həcmi isə 603 min manata bərabər olmuşdu.[2] Bakıda iri dəyirman sahibləri arasında İvan və Sergey Skobelevlərin, Seyid Mirzə Məhəmməd oğlunun, P.İ. Tarusovun, P.A. Suxovun, İ. Kurilovun, T.İ. Rudinskinin adlarına rast gəlinir.

XX əsrin əvvəllərində xırda dəyirmanların çoxu iflasa uğramışdı. Bu dövrdə Bakıda 5-8 buxar dəyirmanı fəaliyyət göstərirdi. A.Quliyevə, H.Z.Tağıyevə, "T və Q. Qlaz qardaşları və Ş.Kretinqen" şirkətinə məxsus dəyirmanlar iri kapitalist müəssisələri idi. Sonuncu 1908-ci ildə 1420 min manatlıq məhsul istehsal etmişdi.[3] H.Z.Tağıyevin dəyirmanında 1912-ci ildə ən azı 3,3 mln. manatlıq un üyüdülmüşdü.

XIX əsrin 80-ci illərində Şimali Azərbaycanda çəltiktəmizləmə sənayesi meydana gəldi. İlk çəltiktəmizləmə müəssisəsi 1887-ci ildə Bakıda "T və Q. Qlaz qardaşları və Ş. Kretinqen" şirkəti tərəfindən tikilmişdi. 1890-cı ildə müəssisələrin sayı 3-ə, 1900-cü ildə isə 7-ə çatmışdı. Məhsul istehsalına gəldikdə isə, 1890-cı ildə Bakıda 300 min manatlıq, 1900-cü ildə isə 2,3 mln. manatlıq çəltik təmizlənmişdi. Ümumilikdə, 1890 - 1900-cü illərdə Bakıdakı müəssisələrdə 6 264 890 manata bərabər məhsul istehsal edilmişdi.

1900 - 1909-cu illərdə Bakıda fəaliyyət göstərmiş 6-8 çəltiktəmizləmə müəssisələrində orta hesabla 4,5-5 mln. manatlıq təmizlənmiş çəltik alınmışdı.[4] İstehsal olunmuş məhsulun çox hissəsi A.B. Quliyevin, "T və Q. Qlaz qardaşları və Ş. Kretinqen" şirkətinin, Şteyner və Qrundlyandın müəssisələrinin payına düşürdü.

Qeyd olunan sahələrlə yanaşı, tədqiq olunan dövrdə Bakıda çörəkbişirmə və qənnadı müəssisələri fəaliyyət göstərir, makaron, vermişel, yarma, kolbasa, mineral sular, buz istesalı, dəniz suyunun təmizlənməsi həyata keçirilirdi. Bu istehsal sahələri ilə bağlı olan müəssisələrdən "Şahnəzərov və K°" şirkətinə, A. Şərifova, Hacı Qafara, Sarayevlərə məxsus qənnadı müəssisələrini, Ş.Kretinqenə, "Mars" şirkətinə, Q. Mövsümova məxsus makaron fabriklərini, Venselə məxsus kolbasa zavodunu, "Komar" cəmiyyətinə, Mehrabova, Ananyevə məxsus mineral su zavodlarını, "Tuqmayev və K°" şirkətinə", Ş.Ramazanova, "Bakı buz istehsalı zavodu" cəmiyyətinə məxsus buz zavodlarını, "Artur

[1] Орлов П.А. Указатель фабрик и заводов окраин России: Царского Польского, Кавказа, Сибири и Среднеазиатских владений, с. 155-166.
[2] Yenə orada, s. 155-156.
[3] ARDTA, F. 509, siy. 1, iş 105, vər. 33.
[4] RFDTA, F. 20, siy. 12, iş 14, vər. 140-154.

Koppel" səhmdar cəmiyyətinə məxsus sutəmizləyici müəssisəni göstərmək olar.

Bakıdakı qənnadı müəssisələrinin istehsal etdikləri məhsulun dəyəri 1915-ci ildə 180 min manatdan çox olmuşdu.[1] Əsası 1881ci ildə qoyulmuş və Venselə məxsus kolbasa zavodunun illik dövriyyəsi 1905-1912-ci illərdə 70 min manatdan çox idi.[2] 1905-ci ildə Bakıda 31 min manatlıq mineral su istehsal olunmuşdusa, 1912-ci ildə bu rəqəm 27 900 manata qədər artmışdı.[3] Süni buz zavodlarının istehsal etdikləri ümumi məhsulun orta illik dəyəri 50 min manatdan çox idi.[4] "Artur Koppel" səhmdar cəmiyyətinin "Yanqa" müəssisəsində ildə 22-24 milyon vedrə su təmizlənirdi. 1907-ci ildə Bakıda Kür çayından gətirilmiş suyu təmizləyən müəssisə də fəaliyyətə başlamışdı.[5] XX əsrin əvvəllərində "Kaspi və Qara dəniz", "Aramazd" səhmdar cəmiyyətləri Bakıda su kəmərlərinin tikintisi ilə məşğul idilər.

**"Tütün və duz istehsalı"** adlı dördüncü yarımfəsilin əsas məzmununu Şimali Azərbaycanda tütün məmulatları və duz istehsalındakı vəziyyət təşkil edir. XIX əsrin son rübündə tütün məmulatları əsasən Bakı, Nuxa və Şamaxıda istehsal olunurdu. XIX əsrin sonlarında Bakıda 2 tütün fabriki, Nuxada isə 3 maxorka fabriki fəaliyyət göstərirdi. 1899-cu ildə Bakıdakı fabriklərdə 1,2 mln. manatlıq məhsul istehsal olunmuşdu.[6] Nuxadakı fabriklərdən ən böyüyünün - M.N.Dadanova məxsus maxorka fabrikinin orta illik dövriyyəsi 21 min manatdan çox deyildi.[7] Buradakı digər iki fabrik də kiçik müəssisələr idi. Şamaxıda iki kiçik maxorka fabriki mövcud olmuşdu. Onlardan Abdullayevə məxsus nisbətən iri fabrikdə əsrin sonlaında ildə 2-6 min manatlıq məhsul istehsal olunurdu.[8]

1900-1904-cü illərdə Bakıda 2 tütün fabriki vardı, 1905-ci ildə üçüncü, 1910-cu ildə isə dördüncü fabrik tikildi. Fabrik sahiblərindən Əzimbəyovu, Nağı Mehdiyevi göstərmək olar. XX əsrin əvvəllərində Şimali Azərbaycanda 3 mln. manata bərabər orta illik istehsalın 2,5

[1] ARDTA, F. 43, siy. 1, iş 870, vər. 3-10.
[2] Кавказский календарь на 1913-1915 гг. Тифлис, 1916, с. 264-278.
[3] ARDTA, F. 509, siy. 1, iş 264, vər. 11, 44; yenə orada, iş 608, vər. 85.
[4] Yenə orada, iş 172,vər. 21.
[5] Обзор Бакинской губернии за 1904 г., с. 2; Кавказский календарь на 1910г. отд.IV, Тифлис, 1911, с. 72-73.
[6] Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. с. 377.
[7] Орлов П.А. Указатель фабрик и заводов окраин России: Царского Польского, Кавказа, Сибири и Среднеазиатских владений., с. 177.
[8] Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. с. 384.



mln. manatı Bakıdakı fabriklərin payına düşürdü.[1] Şimali Azərbaycan Cənubi Qafqazda istehsal olunan tütün məmulatlarının təxminən 40 %-nə sahib idi.

Bakıda "Kalibr", "Qafqaz" və "Qaragözov və K°" şirkətlərinə məxsus papiros gilzi hazırlayan fabriklər də fəaliyyət göstərirdi.

XX əsrin əvvəllərində Şimali Azərbaycanda maxorka istehsalı da davam edirdi. 1914-cü ildə burada 8 maxorka fabriki mövcud idi. Onlar birlikdə il ərzində 400-500 min manatlıq maxorka istehsal edirdilər. 1908-ci ildə Tiflisdəki "Mir" şirkəti maxorka istehsalını dayandırdıqdan sonra Şimali Azərbaycan bu sahədə Cənubi Qafqazın yeganə mərkəzinə çevrilmişdi.[2]

Birinci dünya müharibəsi illərində tələbatın artması tütün məmulatları istehsalını yüksək səviyyədə saxlamağa imkan vermişdi.

Şimali Azərbaycanın yeyinti sənayesində duz istehsalı mühüm yer tuturdu. 1876-cı ildən şor duz göllərinin icarəyə verilməsi, 1881-ci ildə isə duzdan alınan aksiz vergisinin ləğv edilməsi duz istehsalına müsbət təsir göstərmişdi. 1884-cü ildə Abşeron göllərindən 600 min puddan çox,[3] 1890-1900-cü illərdə isə Cavad qəzasındakı göllərdən ildə orta hesabla 230-240 min pud şor duz alınmışdı.[4] Bundan başqa, 80-ci illərdə Naxçıvandakı duz mədənlərindən ildə 250 min pud daş duz çıxarılmışdı.[5] Deməli, XIX əsrin son rübündə Şimali Azərbaycanda ildə ən azı 1mln. pud duz istehsal olunurdu.

Duz göllərinin icarə haqqının yüksək olması və imperiyanın digər yerlərindən Şimali Azərbaycana daha ucuz duzun gətirilməsi Abşeron yarımadasında və Cavad qəzasında istehsalın azalmasına səbəb olmuşdu. 1901-ci ildə Abşeronda 31 göldən 684 min pud şor duz əldə olunmuşdusa, 1913-cü ildə 34 göldən 283 min pud duz alınmışdı.[6] Cavad qəzasına gəldikdə isə, 1903-cü ildə buradakı göllərdə 151 436 pud, 1914-cü ildə isə cəmi 50 min pud şor duz istehsal olunmuşdu.[7]

[1] Исмаилов М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализма, с. 62.
[2] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s. 190.
[3] Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. с. 226-227.
[4] ARDTA, F. 44, siy. 2, iş 1162, vər. 29-30; Yenə orada, F. 92, siy.1, iş 119, vər. 44-52.
[5] Марголиус А.М. Сольяные промыслы Закавказья, их прошлое, современное и возможное будущее, 79-80.
[6] Сборник статистических сведений о горнозаводской промышленности России за 1903 г., с. 477; Сборник статистических сведений о горнозаводской промышленности России за 1906 г., с. 460; Сборник статистических сведений о горнозаводской промышленности России за 1910 г., с. 242; Сборник статистических сведений о горнозаводской промышленности России за 1913 г., с. 244.
[7] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s. 74.

Naxçıvandakı Sust duz mədənləri "Kəlbalıxanov və K°" ticarət evinin sərəncamında idi. Qafqaz Dağ-Mədən Departamenti bu mədənlərdən ildə 100 min puddan çox duz çıxarılmasına icazə vermirdi. Bu məhdudiyyət yalnız 1911-ci ildə Sənaye və Ticarət Nazirliyi tərəfindən ləğv edilmişdi. "Kəlbalıxanov və K°" ticarət evi 1901-ci ildə 25 min pud daş duz çıxarmışdısa, 1911-ci ildə bu rəqəm 304 261 min puda, 1916-cı ildə 156 045 puda qədər artmışdı. Naxçıvanda xəzinənin sərəncamında olan mədənlərdən isə 1901-ci ildə 92 277 pud, 1916-cı ildə isə 212 361 pud daş duz çıxarılmışdı.[1]

Ümumilikdə Şimali Azərbaycanın bütün duz göllərindən və mədənlərindən 1901-ci ildə 382 min pud, 1913-cü ildə isə bundan 2 dəfə çox, 773 887 pud duz əldə olunmuşdu.

Üçüncü fəslin sonuncu yarımfəsli **"Fəhlələrin təşəkkülü"** adlanır. Burada Şimali Azərbaycanın yeyinti sənayesində fəhlələrin sayı və vəziyyəti ilə bağlı məsələlər tədqiq olunur. Məlumdur ki, XIX əsrin sonu-XX əsrin əvvəllərində yeyinti sənayesində kapitalist müəssisələrinin inkişafı on minlərlə yerli və əcnəbi fəhlənin bu sahəyə üz tutması ilə nəticələnmişdi. Yeyinti sənayesində ən çox fəhlə balıqçılıq təsərrüfatlarında və balıq sənayesində çalışırdı. 1884-cü ildə Şimali Azərbaycanın çay və göllərini əhatə edən 29 balıqçılıq sahəsində ümumilikdə 3503 nəfər balıqçı, fəhlə və qulluqçu işləyirdisə, 1900-cü ildə onların sayı təxminən 2 dəfə artaraq 6359 nəfərə çatmışdı.[2] XX əsrin əvvəllərində yeyinti sənayesində çalşan fəhlələrin sayı bir neçə dəfə artmışdı. 1900-cü ildə bu sənaye sahəsində ümumilikdə 11 777 nəfər fəhlə vardısa, 1908-ci ildə onların sayı 28 847 nəfərə, 1914-cü ildə isə 53 597 nəfərə çatmışdı, başqa sözlə 1900-cü ildən 1914-cü ilədək fəhlələrin sayı 4,5 dəfə artmışdı.[3] Fəhlələrin 70 %-dən çoxu balıq sənayesinə aid idi.

Fəhlələrin milli tərkibi müxtəlif idi. Yerli fəhlələrlə yanaşı, Cənubi Azərbaycandan, Rusiyanın müxtəlif quberniyalarından çıxanlar da tədqiq olunan sənaye sahəsində çalışırdılar. Məsələn, 1900-cü ildə çay və göl vətəgələrində çalışanların 89 %-ni azərbaycanlılar, 11 %-ni isə qeyri-azərbaycanlılar təşkil edirdi.[4] Ümumiyyətlə, azərbaycanlılar yeyinti sənayesinin bütün sahələrində sayca üstünlük təşkil edirdilər.

Fəhlələrin iş və yaşayış şəraiti, onlara göstərilən tibbi xidmətin vəziyyəti pis təşkil olunmuş, əmək haqlarının ödənilməsində milli-ayrıseçkiliyə yol verilirdi. 1897-ci ildə 11,5 saatlıq iş günü haqqında çar

[1] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s. 73.
[2] Кафарова З. Формирование рабочего класса Азербайджана во второй половине XIX в., с.85.
[3] ARDTA, F. 509, siy. 1, iş 105, vər. 12.
[4] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı, s. 232-233.



fərmanı işıq üzü görsə də, buna məhəl qoyan yox idi. Balıq sənayesində iş günü bəzən 18-19 saata çatırdı. Fəhlələr rütubətli daxmalarda və taxtadan tikilən fəhlə qazarmalarında yaşayırdılar.

Tibbi xidmətin aşağı səviyyədə olması fəhlələr arasında müxtəlif xəstəliklərin yayılmasına, ölüm hallarının çoxalmasına səbəb olurdu. Peşəsindən asılı olaraq fəhlələrin aylıq əmək haqları 6-18 manat arasında dəyişirdi. Ən yüksək əmək haqqı ruslara, ən aşağı əmək haqqı isə Cənubi Azərbaycandan gələnlərə verilirdi.

Dissertasiyanın **"Nəticə"** hissəsində ümumiləşdirmələr aparılmış, iş prosesində əldə olunan nəticələr verilmişdir.

Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı məqalələrində əks olunmuşdur:


1. «Nizami Gəncəvinin iqtisadi baxışları» / Tələbə elmi cəmiyyətinin 2002-ci ildə keçirdiyi konfransda dinlənilən məruzələrin tezisləri – s.244-246, Bakı «CÜMƏ» 2002.
2. «XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda üzümçülüyün tarixindən» //Bakı Universiteti xəbərləri, HUMANİTAR elmlər seriyası, №3 s.156-164, Bakı 2007.
3. «XIX əsrin axırları – XX əsrin əvvəllərində Şimali Azərbaycanda şərab, konyak və spirt-araq istehsalı» //Bakı Universitetinin Xəbərləri, HUMANİTAR elmlər seriyası, №3,s.186-189, B., 2008.
4. «XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda yeyinti sənayesi fəhlələrinin təşəkkülü tarixindən» // Bakı Universiteti Xəbərləri, HUMANİTAR elmlər seriyası, №2, s.101-107, Bakı 2009.
5. «XIX əsrin sonu - XX əsrin əvvəllərində Şimali Azərbaycanda balıqçılıq və balıq sənayesi haqqında» // Tarix və onun problemləri, **1-2,** s.55-62, Bakı 2009.
6. «Солодковая и маслобойная промышленность в Азербайджане конца XIX – начала XX вв.» // ИРС – НАСЛЕДИЕ, №3(39), стр.52-56 Москва 2009.
7. « XIX əsrin axırları – XX əsrin əvvəllrində Şimali Azərbaycanın yeyinti sənayesinin xammal bazası haqqında» // Bakı Universitetinin Xəbərləri, HUMANİTAR elmlər seriyası, №1, s.69-78, Bakı 2010.
8. «XIX əsrin axırları – XX əsrin əvvəllərində Şimali Azərbaycanda tütünçüdük tarixindən» // Azərbaycan Respublikası: uğurlar və prespektivlər. Bakı, 16 noyabr 2010-ci il. Beynəlxalq elmi konfransın materialları. Bakı, 2010, s.271-279.
9. « Из истории табачной промышленности Северного Азербайджана в конце XIX – начале XX вв.// Международный научный журнал Кавказ и Мир, №10, стр. 119-122,Тбилиси 2011.

**Велиева Хураман Тофик кызы**

## История пищевой промышленности Северного Азербайджана в конце XIX – начале XX вв.

## РЕЗЮМЕ

Диссертационная работа посвящена изучению истории пищевой промышленности Северного Азербайджана в конце XIX – начале XX вв. и состоит из введения, трех глав, заключения и списка использованных источников и литературы.

Во введении обоснована актуальность темы, анализированы историографические и источниковедческие базы исследования, определены цель и задачи, методологические основы, научная новизна, теоретическая и практическая значимость работы. Первая глава - «Сырьевая база отраслей пищевой промышленности» состоит из четырех параграфов. В первом параграфе речь идет о состоянии рыбного хозяйства, во втором о положении в виноградарстве, в третьем о развитии табаководства, сбор солодкового корня и производства хлопковых семян, и в четвертом о состоянии зерноводства и рисоводства.

Вторая глава - «Промышленность по обработке рыбы» состоит из трех параграфов. В первом параграфе анализируется процесс переработки рыб, выловленных в реках и озерах Северного Азербайджана, объектом изучения второго параграфа является процесс возникновения и деятельность морских ватаг. Третий параграф посвящен вопросам экспорта рыбы и рыбопродуктов из Северного Азербайджана в Россию и Европу. Третья глава – «Производство вина и хлопкового масла. Переработка солодкового корня» состоит из пяти параграфов. В первом параграфе анализируется динамика производства вина, спирта, спиртовых напитков и коньяка. Во втором параграфе рассматривается деятельность заводов по переработке солодкового корня и хлопковых семян. В третьем параграфе освещается ситуация в других отраслях пищевой промышленности - мукомольной, рисоочистительной, производство кондитерских, макаронных, колбасных изделий, минеральных вод и т.д. В четвертом параграфе рассматриваются вопросы, связанные с производством табака и соли. Наконец, в последнем, пятом параграфе речь идет о формировании рабочих пищевой промышленности.

В заключении обобщаются результаты исследования, подводятся итоги диссертационной работы.



**Khuraman Tofiq kizi Valiyeva**

## About history of food industry of the North Azerbaijan at the end of the XIX – begining of the XX centuries

## SUMMARY

Dissertational work has been dedicated to the history of the food industry in the North Azerbaijan at the end of the end of the XIX – beginning of the XX centuries and consists of introduction, 3 chapters, result, source and list of literature. The urgency of the subject, base of etymology and historicity , purpose and duties of investigation, the methodological bases, the scientific innovation, theoretical and practical importance of investigation have been lightened in the introduction part of work. The first chapter was called “The raw material bases of the areas of food industry” and consists of four paragraphs. In first paragraph is talked from fish farm, in second paragraph about vine-growing, in third about cultivating of tobacco leaf and liquorices carrot and about get of the seed, in forth about manufacture of a grain and the job of paddy cultivator .

The second chapter was called “The industry of fish processing” and consists of three paragraphs. In first paragraph have been analyzed the process of treatment of the fish, in second chapter have been kept in attention the occurring and development of the sea fisheries and the last - third paragraph dedicated to export of fish and fish products to Russia and Europe countries.

Third chapter - "Wine and seed enemy production. Processing of liquorices root” consists of five paragraphs. In first paragraph have been analyzed problems connected with production of wine products, in second paragraph is shown the activities of plans of wine and seed enemy production, processing of liquorices root, in third paragraph about another areas of the food industry, in fourth paragraph about production of tobacco and salt and the last one- in fifth paragraph is talked about formation of workers.

In the result part of thesis have been given generalizes and results got in the process of work.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

---

***На правах рукописи***

**ХУРАМАН ТОФИК кызы ВЕЛИЕВА**

# ИСТОРИЯ ПИЩЕВОЙ ПРОМЫШЛЕННОСТИ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В КОНЦЕ XIX – НАЧАЛЕ XX ВВ.

**Специальность:**
**5503.02 – Отечественная история**

**А В Т О Р Е Ф Е Р А Т**
**Диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ - 2013**